Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

16-18 NOYABR 2019-cu il

№ 204 (4102)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QARABAĞ MÜNAQİŞƏSİNİN KÖKÜNÜ SƏRRAST İFADƏ EDƏN TEZİS BAKIYA TOPLAŞMIŞ DÜNYA DİN XADİMLƏRİNİN MÜZAKİRƏSİNDƏ...

■ səh. 8 ■



■ səh. 3 ■

## Dünyanın din xadimləri gələn il Bakıda dini və siyasi liderləri birləşdirəcək böyük konfrans keçirməyi qərara aldılar

*Azərbaycanın ərazi bütövlüyünə yüzlərlə tanınmış din xadimindən dəstək...*

Şimali Qafqazın din xadimləri Prezident Əliyevlə maraqlı və açıq söhbətdə Heydər Əliyevlə Putini necə müqayisə etdilər...

■ səh. 2 ■

Dünya din başçıları Azərbaycanda bir formul da eşitdilər - "Bu inkişaf multikultural dəyərlər sayəsində mümkün olub"

■ səh. 6 ■

Azərbaycan gələcək inkişafını milli köklər üzərində qurur - Prezidentin dünya xadimlərinə dediyi bu sözlərin hansı gücü var...

■ səh. 8 ■

Multikultralizmin dövlət siyasəti ilə həyat tərzinə çevrildiyini Azərbaycana gəlmiş din xadimləri də gördü...

■ səh. 6 ■

Almaniyada cinayət faktına Müsavat Partiyasından gecikmiş və yarımçıq reaksiya...

■ səh. 11 ■

Gənc nəslimizin yad təsirlərdən qorunması dünya din liderlərinin müzakirəsində...

■ səh. 13 ■

Trampla Ərdoğanın söhbətləri ABŞ-da erməni lobbisinin "burnunu ovdu"

■ səh. 12 ■

Mühacir insan alverçilərinin Almaniyada aldadılmış soydaşlarımızın başına açdığı müdhiş oyunlar...

■ səh. 7 ■



Dağlıq Qarabağ dini münaqişə deyil - dünya din xadimləri münaqişə ilə bağlı Bakıda yeni «ideoloji silah» əldə etdilər...

■ səh. 4 ■



Qarabağ müharibəsində Azərbaycanın komandirləri arasında Şamil Basayevin, Gülbəddin Hikmətyarın da adları var - inanılmaz təhrifin arxasında kim durur...

■ səh. 10 ■

Almaniyada ifşa əməliyyatı Müsavat Partiyasında sıravilərin kütləvi istefalarına səbəb ola bilər...

■ səh. 5 ■

■ səh. 9 ■

Lavrovun İrəvanda verdiyi bəyanatlardan sonra, ermənilərin gözləntilərinin əksinə olaraq, Azərbaycanın mövqeləri daha da möhkəmləndi...



■ səh. 14 ■

Yaşar Lətifovun açıqlaması SOCAR-ın dünya qaz bazarında gücünün artacağından xəbər verir



■ səh. 4 ■

Bakıya gəlmiş 500-dən çox dini lider Qarabağ təcavüzünü açıq dəstəkləyən erməni katolikosuna necə təsir edə bilər?



■ səh. 5 ■

Cinayətkar dəstənin cəzalandırılması vacibdir, lakin uşaqların deportasiyası Almaniyanın humanist prinsiplərinə uyğundurmu...(?)



■ səh. 7 ■

Azərbaycan və erməni jurnalistlərinin qarşılıqlı səfərləri nəyi dəyişə bilər ki - Paşinyan aşkar pozuculuqla məşğuldursa...





”...onlar hər şeyi bilirlər...”

# Şimali Qafqazın din xadimləri Prezident Əliyevlə maraqlı və açıq söhbətdə Heydər Əliyevlə Putini necə müqayisə etdilər...

**Prezident İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, artıq uzun illərdir ki, görüşür, söhbət edir, dinlərarası dialoq, təhsil, Qafqazın dini liderlərinin qarşılıqlı əlaqələri ilə bağlı mühüm məsələləri müzakirə edirik:**

"Hesab edirəm ki, bizim görüşlərimiz və fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb edir".

Prezident deyib ki, Qafqaz vahid orqanizmdir, o elə bir məkandır ki, orada yerli xalqlar əsrlər boyu yaşayır, qurur, yaradırlar, memarlıq abidələri yaradırlar və gələcəyə inamla baxırlar:"Əlbəttə, hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün Rusiya-Azərbaycan münasibətləri həlledici rol oynayır.

Prezident xatırladıb ki, bir neçə ay bundan əvvəl verdiyi Fərmanla Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyevi Azərbaycanın yüksək ordeni - "Dostluq" ordeni ilə təltif edib. Bildirib ki, bu orden öz fəaliyyətləri ilə xalqlarımız arasında dostluğun möhkəmlənməsinə töhfə verən xarici ölkə nümayəndələrinə təqdim edilir və "Dostluq" ordenini İsmayıl Berdıyevə təqdim edib.

Yüksək mükafata görə minnətdarlığını bildirən Müfti İsmayıl Berdıyev deyib ki, Sizin atanızın Azərbaycanda gördüyü işlərin bəhrələrini biz burada Sizin timsalınızda görürük:" Axı, mən Bakını sovet dövründə də, Elçibəyin zamanında da görmüşəm. İndi tamamilə başqadır. Siz nə edirsinizsə, Azərbaycan xalqı üçün edirsiniz. Çox sağ olun".

Müfti İsmayıl Berdiyev daha sonra deyib ki, heç vaxt unutmuram, mənə söyləyiblər ki, biz hamımız Kəbədə, Qara daşın qarşısında dayananda atanız Sizə demişdi: "Heyf ki, anan burada yoxdur". O bu sözləri nə üçün demişdi? İnsanın əhvalı yaxşı olanda istəyir ki, doğmaları onun yanında olsun. O buna görə belə demişdi. İnşallah, o, Azərbaycan üçün etdiklərinə görə cənnətdə olacaq. Biz hamımız onunla fəxr edirdik. Sovet dövründə biz fəxr edirdik ki, Sov. İKP MK Siyasi Bürosunda bir müsəlman var. Siz onun yolunu davam etdirirsiniz. Bu işi davam etdirmək üçün Allah Sizə qüvvət və sağlamlıq versin".

Xoş sözlərə görə təşəkkür edən Prezident İlham Əliyev bildirib ki, Siz çox düzgün olaraq qeyd etdiniz, bugünkü Azərbaycan Heydər Əliyevin qəhrəmancasına fəaliyyətinin nəticəsidir:"O, Azərbaycanın inkişafı üçün həmişə çox böyük səy göstərirdi. Sovet dövründə, 1969-cu ildə Azərbaycana rəhbərlik edəndə o cavan idi, 46 yaşı vardı. O, Azərbaycanı inkişaf səviyyəsinə görə SSRİ-də ən axırıncı yerdən ən qabaqcıllar sırasına çıxardı. O vaxt Rusiya Federasiyasından başqa cəmi iki respublika - Azərbaycan və Belarus ümumittifaq xəzinəsinə aldıqlarından çox verirdi. Rusiya Federasiyası sırf şərti mənada müttəfiq respublika idi. O, dövləti və respublikanı yaradan qurum idi. Bütün digər respublikalar dotasiya alırdı. Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan bütün göstəricilər üzrə ən yüksək yerlərə çıxdı - həm sənayedə, həm kənd təsərrüfatında, həm elektronikada, həm infrastrukturda, həm də regionların inkişafında. Təsadüfi deyil ki, bizim xalqımız böyük çətinliklərlə, faciə ilə üzləşəndə insanlar, ilk növbədə, Heydər Əliyevə müraciət etdilər. Xalqımız 1993-cü ildə onu Azərbaycana rəhbərliyə dəvət etməklə, əslində, bizi fəlakətdən xilas etdi".

Müfti İsmayıl Berdiyev daha sonra Rusiya prezidenti Vladimir Putinin Azərbaycana və onun rəhbərliyinə münasibətindən danışıb. Deyib ki, biz Prezidentimiz Vladimir Vladimiroviçin Sizə necə münasibət bəslədiyini görürük, o Sizə hörmətlə yanaşır:"O Sizin atanızı tanıyır. Onlar vaxtilə birlikdə işləyiblər. Belə adamlar heç nəyi gözdən qaçırmırlar, onlar hər şeyi bilirlər. Buna görə Sizin bu dostluğunuz bizim üçün çox dəyərlidir. İndi Rusiya artıq dünyada Sovet İttifaqına bənzər böyük dövlətə çevrilib. Onlar dağıtmaq, uçurmaq, tapdalamaq istəyirdilər. Lakin məhz Putin buna imkan vermədi. O başa düşdü ki, biz birlikdəyik, bizim gücümüz bundadır". Prezident İlham Əliyev isə ccavabında bildirib ki, məhz bu qarşılıqlı etimad səviyyəsi çoxillik, səmimi və həqiqi əməkdaşlıq sayəsində qazanılıb: "Bu etimad səviyyəsi bizim hər hansı məsələləri müzakirə etməyimizə və onları həll etməyimizə imkan verir. Mən də Rusiya Prezidentinə böyük hörmət bəsləyirəm. Mən onunla hələ Heydər Əliyev Azərbaycan Prezidenti olduğu dövrdən tanışam. O vaxt Vladimir Vladimiroviç Azərbaycana səfər etmişdi. Ona qədər Sovet İttifaqı dağılandan sonra 10 il ərzində Rusiya Prezidenti Azərbaycana gəlməmişdi.

Hərçənd, biz qonşularıq, bizi çox şey bağlayır. Vladimir Vladimiroviç isə Prezident olan kimi atamın dəvətini qəbul etdi, Azərbaycana gəldi və bizə hörmətini göstərdi. Əslində, o vaxt Heydər Əliyevlə o bizim münasibətlərimizin təməlini qoydu, bu münasibətlər bu gün də davam edir. Ona görə mən bu yolla gedirəm və Rusiya Prezidenti ilə mənim çoxsaylı, məzmunlu görüşlərim bir-birimizə səmimi münasibətin təzahürüdür. Xalqlarımız bunu bilir və görür. Bu böyük sərvətdir".

***Baki-xeber.com***

## ”Tarixi şəxsiyyətlər”in yeni sayı Dünya Dini liderlərinin II Bakı Sammitinə həsr olunub

**"Tarixi şəxsiyyətlər" beynəlxalq, ictimai-siyasi jurnalın növbəti sayı işıq üzü görüb.**

Jurnalın bu sayı Rus Provaslav Kilsəsinin rəhbəri, Moskvanın və bütün Rusiyanın patriarxı Kirilə həsr olunub. Nəşrdə, həmçinin, hazırda ölkəmizin ev sahibliyi ilə Bakıda keçirilən Dünya Dini liderlərinin II Bakı Sammiti haqqında da yazılar yer alıb.




***Xəbər xidməti***

**Dünya dini liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib. "Trend"in məlumatına görə, bəyannamədə Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyi vurğulanıb.**

# Dünyanın din xadimləri gələn il Bakıda dini və siyasi liderləri birləşdirəcək böyük konfrans keçirməyi qərara aldılar

*Azərbaycanın ərazi bütövlüyünə yüzlərlə tanınmış din xadimindən dəstək...*



Azərbaycan Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin II Bakı Sammitinin və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubiley tədbirlərinin keçirilməsi barədə qərarları, habelə II Bakı Sammitində iştirakı və dərin məzmunlu çıxışı yüksək dəyərləndirilib.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin əhəmiyyəti, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələri qeyd edilib.

Dünya dini liderlərinin II Bakı Sammitinin yüksək səviyyədə təşkili, habelə müxtəlif mədəniyyətlərin və dinlərin daşıyıcılarının, dövlət, ictimaiyyət və elm xadimlərinin görüşləri və fikir mübadilələrinin aparılması üçün yaradılan şəraitə görə tədbirin Təşkilat Komitəsinə minnətdarlıq bildirilib.

Moskva və Bütün Rusiya Patriarxı Kirillin sivilizasiyalararası və dinlərarası əməkdaşlığa töhfələri, bölgədə və beynəlxalq miqyasda sülhün və əmin-amanlığın qorunmasında, eləcə də qarşılıqlı etimad mühitinin yaradılmasında önəmli rolu qeyd olunub.

Roma Papası Fransiskin 2016-cı il noyabrın 2-də Azərbaycana apostol səfəri zamanı Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa verdiyi dəyər yüksək qiymətləndirilib. Habelə Papa Fransisk və Əl-Əzhərin baş imamı Şeyx Əhməd əl-Tayyib tərəfindən 2019-cu il fevralın 4-də Əbu-Dabidə imzalanmış "İnsani qardaşlıq, dünyada sülh və birgəyaşayış" Birgə Sənədi alqışlanıb.

Bütün Gürcüstan katalikos-patriarxı II İliyanın Qafqaz regionunun ənənəvi tolerantlıq mühitinin qorunmasında, bölgədə sülhə və əminamanlığa nail olunmasında və dinlərarası anlaşmanın bu məqsədlər naminə dərinləşməsində müstəsna xidmətləri vurğulanıb.

Qafqaz və ona qonşu olan bölgələrin, Mərkəzi Asiya ölkələrinin dini liderlərinin dinlərarası və məzhəblərarası əməkdaşlığın inkişafına və mənəvi dəyərlərin qorunmasına verdikləri töhfələr qeyd edilib.

Dünyanın müxtəlif regionlarını təmsil edən xristian, müsəlman, yəhudi, buddist, induist və digər dini birliklərin rəhbərləri və dini konfessiya təmsilçilərinin müasir dünyanı təhdid edən problemlərə dair birgə mövqeyinin bildirilməsi, o cümlədən dinlərarası və sivilizasiyalararası həmrəyliyin vacibliyinin bütün dünyaya nümayiş etdirilməsi məqsədilə belə tədbirlərin davamlı əsaslarda təşkil olunmasının əhəmiyyəti vurğulanıb.

Dünya dini liderlərinin II Bakı Sammitində irəli sürülən, Azərbaycan tərəfinin 2020-ci ildə Bakıda "Media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin və siyasi xadimlərin birgə fəaliyyəti" mövzusunda BMT, KAİCİİD və Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin həmtəşkilatçılığı ilə beynəlxalq konfransın keçirilməsi təşəbbüsü alqışlanıb.

Dünya dini liderlərinin sülh, əminamanlıq və humanizm ideyalarına xidmət edən dövlət və ictimaiyyət institutları, habelə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığının vacibliyi qeyd edilib.

2018-ci ilin 25 iyun tarixində BMT-nin Cenevrədəki Ofisində "Dinlər, inanclar və dəyər sistemləri: bərabər vətəndaşlıq hüquqları" mövzusunda keçirilmiş ümumdünya konfransında qəbul olunmuş və BMT Baş katibi tərəfindən təsdiq edilmiş Bəyannamə alqışlanıb.

Qarşılıqlı etimad və anlaşma mühitində mədəni müxtəlifliyin, sivilizasiyalararası və dinlərarası əməkdaşlığın təşviq edilməsinin sülhə, təhlükəsizliyə və bəşəri həmrəyliyə töhfə olduğu vurğulanıb və bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edilib.

Dünyada terrorizmin, müxtəlif zəminlərdə ayrı-seçkiliyin, ksenofobiyanın, dini və etnik zəmində dözümsüzlüyün artması, terrorçu və ekstremist qruplaşmalar tərəfindən dini dəyərlərin məqsədyönlü təhrif olunması, mədəni, dini və tarixi irsin dağıdılması, eləcə də qaçqınların, məcburi köçkünlərin və miqrantların humanitar fəlakət həddinə çatmış kütləvi axını nəticəsində dünyada sülhün, qlobal dialoqun və bəşəri həmrəyliyin bərqərar olmaması ilə bağlı dərin narahatlıq ifadə edilib.

Silahlı münaqişələr, terror aktları, dini və etnik zəmində baş verən zorakılıqların insan tələfatı ilə yanaşı, mədəni və dini irsin talan və məhv edilməsi ilə nəticələndiyindən və bu xüsusda dünya mədəni və mənəvi irsinə aid olan, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və dini abidələrin dağıdılmasından dərin narahatlıq ifadə olunub.

Özündə bəşəri dəyərləri ehtiva edən dinlərin dünya sivilizasiyasına, mədəniyyətinə və mənəvi irsinə əhəmiyyətli töhfə verdikləri, humanizmin təşviq edilməsinə, sülhün və ədalətin təmin olunmasına xidmət etdikləri xüsusi vurğulanıb.

Dayanıqlı tərəqqiyə, sabitliyə və təhlükəsizliyə əsas maneə olan silahlı münaqişələrin həllinə, eləcə də aqressiv təbliğatlara, etnik və dini zəmində yaranan münaqişələrin təhrik olunmasına qarşı mübarizə sahəsində beynəlxalq birlik tərəfindən səylərin gücləndirilməsinə olan zərurət bildirilib.

Bəyannamədə dövlətlər, Birləşmiş Millətlər Təşkilatı, digər beynəlxalq və regional və ictimai təşkilatlar, dini liderlər sivilizasiyalararası və dinlərarası qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviq edilməsini və gücləndirilməsini davam etdirməyə, terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanması, ayrı-seçkiliyə, ksenofobiya, islamofobiya, antisemitizm, xristianofobiya zəminində törədilən terror aktları və digər xüsusilə ağır cinayətlərin qarşısının alınması üçün təsirli tədbirlər görməyə, din adından törədilən hər hansı terror aktını bütün dinlərə qarşı törədilmiş terror aktı kimi qiymətləndirməyə, terrorçuların öz məkrli niyyətləri naminə dinlərin müqəddəs dəyərlərindən istifadə etməsi cəhdlərinin qarşısının alınmasına çağırılır.

Həmçinin dini dəyərlər rəhbər tutulmaqla yanaşı, dini ayinlərin aidiyyəti dini məkanların yerləşdiyi ölkələrin dövlət siyasəti və milli qanunvericiliyinə tam riayət etməklə yerinə yetirilməsinin təmin olunmasına, media, rabitə və informasiya texnologiyaları vasitəsi ilə irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların, nifrətə çağırışların qarşısının alınmasında əməkdaşlığın artırılmasına, gənclərin bu sahədə maarifləndirilməsinin təşviq edilməsinə, BMT-nin mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı yönəlmiş təhdid və təhlükələrin qarşısının alınması üçün birgə səylərin artırılmasına və qlobal dialoqun gücləndirilməsinə, silahlı münaqişə, təqib və zorakılıq nəticəsində əziyyət çəkmiş qaçqınlar, məcburi köçkünlər və miqrantların problemlərinin həllinə, onların pozulmuş hüquqlarının bərpa olunmasına, eləcə də bu cür vəziyyətlərin yaranmasına gətirib çıxaran amillərin aradan qaldırılmasına səy göstərilməsinə çağırış öz əksini tapıb.

Bundan başqa, bəyannamədə bütün dinlərin müqəddəs ibadətgahlarında, o cümlədən səmavi dinlərin müqəddəs məkanı olan Qüdsdə təxribatların və zorakılıq hallarının qarşısının alınmasında əməli səy göstərməyə, BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət edilməsinə və bu prinsiplərə riayət olunmasının beynəlxalq ictimaiyyət və yerli cəmiyyət daxilində təşviq edilməsinə, dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yuxarıda göstərilən prinsiplərə tam uyğun olaraq sülh yolu ilə həll olunmasına töhfə verməyə, UNESKO-nun Nizamnaməsinə istinadən, dini, mədəni və etnik müxtəlifliyin qəbul olunması və buna hörmətlə yanaşılmasının təşviq edilməsinə, habelə dini və mədəni irsin qorunmasına, İnsan Hüquqları haqqında Ümumi Bəyannamə və BMT-nin Uşaq Hüquqları Konvensiyasına riayət etməyə, insan hüquqları, o cümlədən qadın və uşaq hüquqlarının təşviqi və müdafiəsi sahəsində din, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətini dəstəkləməyə çağırış yer alıb.

"Münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir". Bunu Prezident İlham Əliyev Dünya Liderlərinin II Bakı Sammitinin açılışı zamanı bildirib.

# Dağlıq Qarabağ dini münaqişə deyil - dünya din xadimləri münaqişə ilə bağlı Bakıda yeni "ideoloji silah" əldə etdilər...




*Seyid Camal Əzimbəyli: "Bu cür yanaşma Azərbaycanın mövqelərinin daha da güclənməsinə xidmət edir"*

Ölkə başçısı deyib ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır:"Azərbaycan xalqı əsrlər boyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır".

Ermənilər və onların havadarları zaman-zaman Dağlıq Qarabağ münaqişəsinə dini don geydirməyə çalışıblar. Guya bunun kökündə dini faktorlar dayanır. Bu səbəbdən xristian ermənilər sıxışdırılır və s. Ancaq Prezident İlham Əliyev çıxışında bir daha bəyan etdi ki, bu belə deyil. Münaqişənin dinlə yaxından və uzaqdan heç bir əlaqəsi yoxdur. Münaqişənin səbəbi etnik separatizmdir. Hansı ki, Ermənistan Qarabağda etnik separatizmi alovlandıraraq Azərbaycanın 20 faiz ərazisini işğal edib. O baxımdan ölkə başçısının çıxışında Dağlıq Qarabağ münaqişəsinin dini münaqişə olmaması ilə bağlı səsləndirdiyi fikirlər Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsində necə rol oynayacaq?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bu cür yanaşma Azərbaycanın mövqelərinin daha da güclənməsinə xidmət edir:"Ermənilər hər zaman çalışıblar ki, münaqişəni dini müstəviyə keçirsinlər. Ancaq həqiqət ondan ibarətdir ki, torpaqlarımız işğal edilib. Münaqişənin kökündə erməni separatizmi dayanır. Bu baxımdan, ölkə başçısının tədbirdə Qarabağla bağlı verdiyi mesaj çox önəmlidir. Bu bütün dünyada Azərbaycanı istəməyənlərə tutarlı mesaj oldu. Qarabağ həqiqətləri ilə bağlı beynəlxalq arenada Azərbaycan dövlətinin apardığı siyasətə bu Sammit böyük bir stimul olacaq. Fikrimcə, bu, Azərbaycan dövlətinin, xalqının bir uğurudur. Dövlətin mühafizə olunması, qorunması bir iman məsələsidir. Biz dövlətsizliyin acı nəticələrini Suriyada, İraqda, Yəməndə gördük və Allah qorusun, ən təhlükəlisi dövlətsizlikdir.

*"Bu baxımdan, ölkə başçısının tədbirdə Qarabağla bağlı verdiyi mesaj çox önəmlidir"*

Ardıcıl belə tədbirlərin, xüsusi olaraq dünyanın dini liderlərinin Bakıda Qarabağla bağlı ölkə başçısının dilindən səslənən o mesajı dinləməsi və öz ölkələrində Qarabağla bağlı həqiqətlərin çatdırılmasında müstəsna xidmətləri ola bilər. Bizim üçün hər şeydən irəlidə gələn bir dəyər var: Azərbaycanın milli maraqları. Sözdə deyil, əməldə, fəaliyyətdə olan hər bir şəxs Azərbaycan dövlətinin və Azərbaycanın milli mühafizəsini istəyən şəxslərdir. Allah-Təala dövlətimizin, xalqımızın düşmənlərinə heç bir zaman fürsət verməsin".

**Vidadi ORDAHALLI**

Dünyanın diqqət mərkəzində olan paytaxtımızda tez-tez beynəlxalq səviyyəli tədbirlər, sammitlər, toplantılar keçirilir. Şərqlə Qərbin qovuşağında yerləşən ölkəmizdə keçirilən bu toplantılardan dünya ictimaiyyətinə çox vacib mesajlar verilir. Məlum olduğu kimi, noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II Sammitində dünyanın 500-dən çox dini lideri iştirak edib.

# Bakıya gəlmiş 500-dən çox dini lider Qarabağ təcavüzünü açıq dəstəkləyən erməni katolikosuna necə təsir edə bilər?



*Qasım Hacıyev: "Dünyanın dini liderləri istəsələr, erməni katolikosuna təsir edə, onun Dağlıq Qarabağ probleminə münasibətinin, mövqeyinin kökündən dəyişməsinə nail ola bilərlər"*

Onlar Azərbaycandakı multikulural, tolerant mühitlə tanış olublar, eyni zamanda da Prezident İlham Əliyevin sammitin açılış mərasimindəki çıxışı zamanı Dağlıq Qarabağ problemi haqqında dəqiq məlumat alıblar. Dini liderlər aydın şəkildə gördülər ki, Azərbaycan təcavüzkar ölkə deyil, inkişaf edən, mədəni, tolerant bir ölkədir. Sammitdə iştirak edən dünyanın 500-dən artıq dini lideri erməni hərbçiləri qədər aqressiv mövqe tutan erməni katolikosu qarşısında hər hansı bir dini demarş edə bilərlərmi? Dağlıq Qarabağ məsələsi ilə bağlı katolikosa təzyiq göstərə, ona çağırışlar edə, təcüvüzlə bağlı başqa mövqe tutmasına təsir edə bilərlərmi?

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, dünya dini liderlərinin erməni katolikosuna bu məsələdə təsir göstərməsi, onun mövqeyinin dəyişməsinə nail olması tam mümkündür. "Əvvəla deyim ki, dünya dini liderlərinin II Bakı Sammiti bizim tarixşünaslığımız, tariximiz üçün çox böyük əhəmiyyət daşıyır. Dünyanın xristian, eyni zamanda da müsəlman dini liderlərinin bu sammitdə iştirakı ölkəmizə göstərilən böyük diqqət və hörmətdir. Bu, dövlətçilik ənənələrimiz üçün də çox təsirli, qiymətli bir hadisədir. İkinicisi, bu sammitdə 500-dən artıq nüfuzlu dini liderin iştirakı, onların burada əsl həqiqətləri dinləməsi dövlətimizin, xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə birmənalı olaraq müsbət təsir göstərə bilər. Sammitdə elə dini liderlər iştirak edir ki, onlar xristian dünyasında böyük nüfuza malikdirlər və erməni katolikosuna da təsir etmək, onu öz mövqeyini dəyişməyə məcbur etmək gücünə sahibdilər. Erməni katolikosunun açıq şəkildə Ermənistanın Dağlıq Qarabağa təcavüzünü dəstəkləməsi, işğalçılarla həmrəylik göstərməsi dünyanın dini liderlərini də narahat etməlidir. Hesab edirəm ki, onlar katolikosa güclü təsir edə bilərlər. Dünyanın elə dövlətləri var ki, bütün siyasi məsələlərdə dini mərkəzlərlə daha çox məsləhətləşirlər, bu mərkəzləri daha çox eşidirlər. Hətta Moskvanın və Bütün Rusiyanın dini lideri Kirilin, eləcə də digər nüfuzlu din xadimlərinin bu sammitə qatılması onu göstərir ki, onlar Azərbaycana çox diqqətlə yanaşırlar və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyini bilirlər, bu problemin həlli üçün çalışacaqlar. Dünya dini liderləri erməni-qriqorian kilsəsinin neqativ fəaliyyəti haqqında məlumatlıdırlar. Dini liderlər bilirlər ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal altında saxlanmasına erməni katolikosu açıq dəstək verir. Onlar yaxşı bilirlər ki, erməni qriqorian kilsəsi siyasətə, korrupsiyaya bulaşıb. Dünya dini liderləri xristianlığa ləkə olan erməni xristianlığının iç üzünü yaxşı tanıyırlar. Hesab edirəm ki, dünyanın dini liderləri istəsələr, erməni katolikosuna təsir edə, onun Dağlıq Qarabağ probleminə münasibətinin, mövqeyinin kökündən dəyişməsinə nail ola bilərlər. Bunun da nəticəsində Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni addımlar atılmış olar".

Q.Hacıyevin qeyd etdiyinə görə, erməni katolikosunun bu sammitə qatılmaması onu göstərir ki, o, açıq şəkildə olmasa da, dolayı yolla Ermənistanın Azərbaycan torpaqlarını təcavüzə məruz qoyduğunu etiraf edir. Q.Hacıyevin fikrincə, II Qaragen bu sammitə qatılardısa, onu burada dünyanın dini liderləri Azərbaycan torpaqlarının işğalda saxlanmasına dəstək verən bir şəxs kimi ittiham edərdilər.

**İradə SARIYEVA**

**Xəbər verildiyi kimi, Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanda müxalifət partiyalarının keçmiş fəallarından ibarət cinayətkar şəbəkə üzvlərinin işini araşdırmaqda davam edir. Qeyd edək ki, Almaniya polisinin apardığı araşdırma nəticəsində müxalifət partiyalarının 7 fəalı, xüsusən də Müsavat Partiyasından olan üzvlərin miqrant alveri məqsədi ilə vahid cinayət qrupu yaratdıqları məlum olub.**

# Almaniyada ifşa əməliyyatı Müsavat Partiyasında sıravilərin kütləvi istefalarına səbəb ola bilər...



***Məhərrəm Zülfüqarlı:** "Hesab edirəm ki, məlum hadisələrdən sonra sıravi müsavatçıların kütləvi şəkildə partiyadan getməsi qaçılmazdır"*

Hazırda onlar Azərbaycandan miqrantların qanunsuz yollarla ölkəyə gəlməsini təşkil etməkdə ittiham olunurlar. Cinayətkarlar göstərdikləri xidmətə görə 3-10 min avro arası pul alıblar. Nəticədə Bavariyada yerli rəhbərlik siyasi təqiblərə görə sığınacaq almış çox sayda miqrantı Azərbaycana deportasiya etmək qərarına gəlib. Onların hamısı məhz Müsavat Partiyasının vəsiqələri əsasında sığınacaq alıblar.

Mühacir alverində Müsavat Partiyasının adının hallanması ölkə ictimayətində böyük rezonansa səbəb olub. Xüsusən də sıravi müsavatçılar arasında bu, böyük ruh düşkünlüyünə səbəb olub. Hansı ki, onların arasında saf niyyətlə bu partiyaya qoşulanlar var və illərini bu təşkilata həsr ediblər. Demokratiyadan, azadlıqdan dəm vuran partiyanın mühacir alveri ilə bu və ya digər dərəcədə məşğul olması, bunun faktlarla sübut olunması, heç şübhəsiz, Müsavat Partiyasına təsirsiz ötüşməyəcək. O baxımdan maraqlıdır, bütün bunlar sıravi müsavatçıların kütləvi şəkildə partiyadan getməsinə necə təsir göstərəcək?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bütün bunlardan sonra sıravi müsavatçıların partiyadan getməsi qaçılmazdır: "Əvvəla, mühacir alveri çoxdan başlayıb. Hətta siyasətə aid olmayan, heç partiyaya dəxli olmayan insanlar bilərəkdən mitinqdə qarşıdurma yaratmaqla, şəkillərini çəkdirməklə mühacir statusu əldə edib. Belə insanlar saxta sənədlər düzəldib müxtəlif ölkələrə gediblər. Əsasən də Almaniyaya. Bütün bu saxtakarlıqları hamı bilirdi. Sadəcə olaraq Avropa buna göz yumurdu. Ancaq son illərdə Avropada miqrantların sayı kəskin artdığına görə qanunsuz mühacir statusu alanları ölkədən çıxarırlar. Hansı ki, əvvəl müxtəlif ölkələrdən gələn miqrantları həvəslə qəbul edirdilər. İndi onlarda böhran yarandığına görə bu məsələyə ciddi yanaşmağa başlayırlar. Bütün bunlara rəğmən, Müsavat Partiyasının adının miqrant alverində hallanması xoşagələn hal deyil. Xüsusən də milli partiya üçün bu xoşagələn hal sayıla bilməz. Ona görə də, partiya mənsubiyyətindən asılı olmayaraq kimlər bu işlə məşğul olubsa mütləq cəzalandırılmalıdır. Hətta partiyadan xaric edilməlidir. Partiya rəhbərliyi bunda iştirak edibsə, onlar da cəzalandırılmalıdır ki, gələcəkdə Azərbaycan adına ləkə gətirən belə hallar olmasın. Hesab edirəm ki, məlum hadisələrdən sonra sıravi müsavatçıların kütləvi şəkildə partiyadan getməsi qaçılmazdır. Bu, sözügedən təşkilatda ruh düşkünlüyü yaradacaq. Xüsusən də əqidəli insanlar orada qalmayacaq".

*"Xüsusən də əqidəli insanlar orada qalmayacaq..."*

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Almaniya federal kriminal polisi mühacir alveri ilə məşğul olan azərbaycanlılardan ibarət dəstəyə qarşı əməliyyat keçirib. Ölkənin Nidersaksen, Şlezviq-Holşteyn, Bremen, Şimali Reyn Vestfaliya, Bradenburq və Reynland-Pfalts əyalətlərində 38-dən çox ev və iş yerlərinə basqın edilib.**

# Cinayətkar dəstənin cəzalandırılması vacibdir, lakin uşaqların deportasiyası Almaniyanın humanist prinsiplərinə uyğundurmu...(?)




***Vüqar Rəhimzadə:** "Bu işdə günahı olmayan uşaqların, qocaların necə gəldi deportasiya edilməsi humanizm prinsipləri ilə uzlaşmır"*

Nəticədə mütəşəkkil cinayətkar dəstənin üzvlərindən 7-si saxlanılıb. Təbii ki, mühacir alveri ilə məşğul olub insanları aldadanlar, qanunu pozub bir sıra cinayət əməllərinə yol verənlər öz layiqli cəzasını almalıdır. Bütün mümkün qanuni vasitələrdən istifadə edilməli və məsələ ətraflı araşdırılmalıdır. Çünki ortada ciddi qanunsuz fəaliyyətin olması faktı mövcuddur.

O da məlumdur ki, son iki gündə Almaniyadan 11 Azərbaycan vətəndaşı deportasiya edilib. Onlar Almaniyanın Şimali Reyn Vestfaliya əyalətinin Geseke şəhərində yaşayan Ülviyyə və Əfran Mütəllimovlar, Aaxen şəhərindən Toğrul Məmmədov, Hamm şəhərindən Azər Əliyev həyat yoldaşı və iki uşağı ilə, Bavariya əyalətindən isə İmran Davudov, Ülviyyə Davudova və onların övladları - 11 yaşlı Fatimə və 9 yaşlı Binnət Davudovalardır. Azərbaycan vətəndaşları Bayroyt və Düsseldorf hava limanlarından transfer uçuş vasitəsilə Azərbaycana deportasiya ediliblər. Onlar sığınacaq istəklərinin geri çevrilməsi ilə bağlı Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarəsinin (BAMF) qərarından məhkəməyə dəfələrlə şikayət etsələr də, deportasiyadan xilas ola bilməyiblər.

Digər məlumata görə, bu ilin yanvarından yaz aylarına qədər 500-ə yaxın azərbaycanlı Almaniyadan deportasiya olunub. Halbuki, onlar arasında 8-9 il bu ölkədə yaşayanlar da var. Əvvəllər qanunsuz gələnlər 10-12 il Almaniyada yaşayırdılar. Sonra humanitar əsaslarla oturum alırdılar. Məlumata görə, indi vəziyyət dəyişib. Belə ki, köhnə dosyelərə baxılır və neçə il yaşamasından asılı olmayaraq, bəzi miqrantlar ölkədən deportasiya olunur.

Bütün bunlarla yanaşı, aparılan deportasiya zamanı uşaqların ölkədən çıxarılması Almaniya kimi bir ölkənin humanist prinsiplərinə nə dərəcədə uyğundur?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, azyaşlı uşaqlara yönəlik bu cür addımlar Almaniyanın humanizm prinsiplərinə uyğun deyil: "Hər bir ölkənin öz qanunları var. Almaniyanın da özünün qanunları olduğuna görə, təbii ki, orada yaşayanlar buna hörmət etməlidilər. Ümumiyyətlə, istənilən ölkəyə mühacirət edənlər oradakı qanunlara uyğun hərəkət etməlidir. Bu arada, Almaniyada mühacir alveri ilə məşğul olan azərbaycanlılardan ibarət dəstənin ifşa edilməsi, onların məsuliyyətə cəlb edilməsi müsbət haldır. Məlum olur ki, bu şəxslər insanların etibarından sui-istifadə edərək bir sıra qanunsuz əməllərə yol veriblər. Təbii ki, bunda günahı olanlar qanuna uyğun şəkildə cəzalandırılmalıdır. Ancaq bu işdə günahı olmayan uşaqların, qocaların necə gəldi deportasiya edilməsi humanizm prinsipləri ilə uzlaşmır. Özü də Almaniya kimi inkişaf etmiş bir ölkədə bunların baş verməsi həmin dövlət barədə yaxşı təəssürat yaratmır. Almaniya iqtisadi baxımdan Avropa İttifaqının lokomotividir.

Əhalinin sayına görə isə Aİ-də birinci yerdədir. Uşaqlarla bağlı məsələdə Almaniya gərək humanist prinsiplərdən çıxış etsin. Çünki uşaqlar günahsızdır. O səbəbdən uşaqlara yönəlik bu cür yanaşma humanizm prinsiplərinə uyğun deyil".

*"Özü də Almaniya kimi inkişaf etmiş bir ölkədə bunların baş verməsi həmin dövlət barədə yaxşı təəssürat yaratmır"*

***Vidadi ORDAHALLI***

**"Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır". Bunu Prezident İlham Əliyev Dünya Dini Liderlərinin II Bakı Sammitinin açılışı zamanı bildirib.**

# Dünya din başçıları Azərbaycanda bir formul da eşitdilər - "Bu inkişaf multikultural dəyərlər sayəsində mümkün olub"



## ***Ramil Hüseynov:*** *"Prezidentin sözügedən məsələ ilə bağlı səsləndirdiyi fikirlər reallığı əks etdirir"*

Ölkə başçısının sözlərinə görə, Azərbaycanın qədim dinlərarası ənənələri var:"Azərbaycan, ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır".

Ölkə başçısının fikrincə, əldə etdiyimiz nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq: "Gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır".

Həqiqətən də Azərbaycanda bu sahədə çox uğurlu vəhdət mövcuddur. Bu da ölkənin inkişafına öz töhfəsini verir. Bu baxımdan Prezidentin bununla bağlı dəyərləndirməsi nə dərəcədə uğurlu izahdır?

*"Mövcud olan bu vəhdət ölkədə siyasi sabitliyə, iqtisadi inkişafa öz müsbət töhfəsini verir"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən VİP-in sədr müavini Ramil Hüseynovun fikrincə, Prezidentin sözügedən məsələ ilə bağlı səsləndirdiyi fikirlər reallığı əks etdirir: "Bununla bağlı çoxsaylı arqumentlər gətirmək olar. Məsələ ondadır ki, Azərbaycanda mövcud olan multikultural dəyərlər ölkədə sabitliyin yaranmasında, inkişafın təmin olunmasında mühüm rol oynayır. Azərbaycanda çox uğurlu dinlərarası vəhdət mövcuddur. Mövcud olan bu vəhdət ölkədə siyasi sabitliyə, iqtisadi inkişafa öz müsbət töhfəsini verir. Təbii ki, ölkədə bütün bunların təmin olunmasında multikultural dəyərlərin özünəməxsus rolu var.

**Azərbaycanda müxtəlif dini icmalar arasında həmrəylik mövcuddur. Dini konfessiyalar arasında hansısa zərərli tendensiyaların özünü göstərməsi üçün zəmin yoxdur. Təsadüfü deyil ki, Azərbaycan dünyada ən tolerant ölkə hesab olunur. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın xeyrinədir".**

***Vidadi ORDAHALLI***

**Dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərlərinin qatıldığı Dünya Dini Liderlərinin II Sammitində çıxışı zamanı ölkə başçısı Azərbaycanın dünya üçün örnək ola biləcək mültikultralizm modelindən danışıb:**

# Multikultralizmin dövlət siyasəti ilə həyat tərzinə çevrildiyini Azərbaycana gəlmiş din xadimləri də gördü...



"Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir. Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılmışdır və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır. Məsələn, Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri, yəni bütün bu tədbirlərin bir məqsədi var - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrıseçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə öz töhfəmizi verməkdir".

Göründüyü kimi, ölkə başçısı tədbir iştirakçılarının diqqətinə Azərbaycanda mənimsənilən mültikultralizmin unikal düsturunu çatdırıb. "Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir" deməklə ölkə başçısı iki mühüm cəhəti bir-biri ilə əlaqələndirib. Bu nailiyyətin əldə olunmasında dövlət xalqa, xalq dövlətə hansı köməklikləri edib?

Bu sahənin araşdırmaçılarından olan Şəlalə Cəsur "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, doğrudan da, coxəsrlik multikulturalizm və tolerantlıq ənənələrinə malik Azərbaycan xalqı bu fenomeni öz həyat tərzinə cevirməyi bacarıb: "Multikulturalizm həm də Azərbaycanın dövlət siyasətində prioritet istiqamətlərdən biri kimi coxdan oz təsdiqini tapıb. Prezident İlham Əliyevin bununla bağlı səsləndirdiyi dəyərli fikir təkcə olkə mətbuatında deyi, dünyanın marağına səbəb olub. Bəli, bizim üçün multikulturalizmin alternativi yoxdur, Azərbaycanda multikulturalizm yaşayır və inkişaf edir. Müasir dövrdə Azərbaycan Respublikasının multikulturalizm siyasətinin uğurla həyata keçirilməsi ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili "Multikulturalizm ili" elan etmişdi. Bilirik ki, tarixən hər bir dövlətin qüdrətinin əsasında iqtisadi güc, siyasi nüfuz dayanır. Lakin ölkədə milli birlik, bunun əsasını təşkil edən humanitar problemlərin xalqın da qəbul etdiyi kimi həlli olmadan qüdrətli səviyyəyə gəlib çatmaq mümkün deyi. Sosial-siyasi sabitlik iqtisadi gücün ən əsas lokomotivlərindəndir, onun da kökündə, təbii ki, humanitar məsələlərin vaxtında, operativ həlli durur. Əgər humanitar məsələ və problemlər vaxtında və həm də beynəlxalq normalara uyğun həll olunmasa, gec-tez ölkədə bu zəmində çox ciddi böhran yaşana bilər. Bu da, öz növbəsində, iqtisadi və siyasi proseslərə çox mənfi təsir göstərər. Bundan başqa, hər bir insan müəyyən intellekt sahibidir. Ölkədə müxtəlif dini, milli dəyərlərə malik insanların siyasi və hüquqi bərabərliyinin təmin olunması, etnik azlıqların milli-mədəni inkişafına qanunla əsas yaradılması, cəmiyyətin də bu prosesə adi normal yaşayış qaydası kimi baxması ölkədə birliyin sarsılmazlığını təmin edir. Bu gün ölkəmizdə sağlam tarixi köklərə malik multikulturalizm dövlət rəhbərliyinin düşünülmüş siyasəti ilə daha da inkişaf edir, yeni pozitiv çalarlarla zənginləşir. Bu baxımdan da dövlət başçısının Azərbaycanda multikulturalizmə münasibət barədə dediyi "Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir" fikri ölkəmizin yaşam tərzi və xalqın ortaya qoyduğu iradə ilə tam ahəngdədir".

***Məhəmmədəli QƏRİBLİ***

**Bir çox KİV-də noyabrın 17-də Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycana 5-6 nəfərlik erməni jurnalist qrupunun gələcəyi haqda xəbər yayılıb. Eyni zamanda, noyabrın 18-19-da Azərbaycan jurnalistlərinin bir qrupunun Ermənistana səfərinin planlaşdırıldığı bildirilir.**

# Azərbaycan və erməni jurnalistlərinin qarşılıqlı səfərləri nəyi dəyişə bilər ki - Paşinyan aşkar pozuculuqla məşğuldursa...

***Azər Həsrət:** "İndiki məqamda bunun baş tutmasını məqbul saymıram"*



Xatırladaq ki, bundan əvvəl Rusiya Xarici işlər naziri Sergey Lavrov Moskvada ATƏT-in Baş katibi Tomas Hermingerlə keçirdiyi brifinqdə Qarabağ münaqişəsi tərəflərinin "vəziyyəti bir az yumşaltmaq və etimad atmosferinin yaradılmasını dəstəkləmək üçün" jurnalistlərin qarşılıqlı səfərləri barədə razılıq əldə etdiklərini açıqlamışdı. Ehtimallar var ki, jurnalistlərin qarşılıqlı səfəri həmin layihənin tərkib elementinə aiddir. "Yeni Nəsil" Jurnalistlər Birliyinin rəhbəri Arif Əliyev bildirib ki, bu səfərin təşkili və seçimində əlaqə və iştirakı yoxdur. Arif Əliyev deyib ki, "Mənə müxbir yaxınlaşıb soruşdu, mən də dedim bu barədə eşitmişəm, amma bizim bu səfərlə, təşkilatçılıqda heç bir iştirakımız yoxdur".

Bu səfərlərdə özünün iştirak edib-etməyəcəyinə gəlincə, Arif Əliyev vurğulayıb ki, bu, Rusiya hökumətinin təşəbbüsüdür: "Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərini təşkil etməyin vacibliyini vurğulamışdı, söyləmişdi ki, bununla bağlı konkret iş gedir. Bu barədə əvvəllər də soruşublar, cavabım "yox" olub, ehtiyac və imkan olsa, bu sahədə öz işimizi qura bilərik. Jurnalistika sahəsində əlaqələrin yaradılmasını perspektivli hesab etmirəm, bu proses gedərsə, bir neçə istiqamətdə paralel olaraq getməlidir".

Qeyd edək ki, yayılan bu xəbər Azərbaycan jurnalistləri arasında birmənalı qarşılanmayıb. Tanınmış jurnalist Azər Rəşidoğlu jurnalistlərin qarşılıqlı səfərləri ilə bağlı fikirlərini paylaşıb. Biz jurnalistin sosial şəbəkədə bu mövzu ilə bağlı paylaşdığı mövqeyini olduğu kimi təqdim edirik: "Erməni jurnalistlərin Bakıya, bizim jurnalistlərin İrəvana və işğalda olan Qarabağa səfərlərinə müsbət yanaşmıram. Bu layihə başlayan gündən ilk təklif alanlardan olmuşam və o vaxt verdiyim cavab dəyişməz qalır - İrəvana və işğal altında olan Qarabağa yalnız tankla gedə bilərəm. Heç bir sülhməramlı səfər və layihəni qəbul etmirəm. Torpaqlarımızı azad etmirlərsə, savaş tərəfdarıyam. Torpaq uğrunda qan tökmək bir şərəfdir, özüm və doğmalarım fəda olsun bu torpağa. "Günahsız erməni" imici yaradanlar sonunda Mübarizləri qatil çıxardacaqlar. Torpaq uğrunda ölməkdən və öldürməkdən böyük şərəf yoxdur".

Məlumdur ki, Ermənistan, başda Paşinyan olmaqla, danışıqlar prosesinə açıq dirəniş göstərir. Onların son davranışlarında konstruktivlikdən əsər-əlamət yoxdursa, jurnalistlərin qarşılıqlı səfərlərinin Dağlıq Qarabağla bağlı sülh prosesinə nə kimi təsiri ola bilər?

*"Bütün bunlar sülhün möhkəmlənməsi layihəsi çərçivəsində olunursa, biz bunun əlamətlərini qəti müşahidə etmirik"*

Media eksperti Azər Həsrət qəzetimizə açıqlamasında bildirdi ki, belə səfərlərin sülh prosesinə hansısa müsbət təsirinin ola biləcəyini iddia etmək mümkün deyil: "Əvvəla, bu səfərlə bağlı məndə dəqiq bilgi yoxdur. Mən də bunu mətbuatdan oxumuşam. Kim gələcək, kim gedəcək, bunu burdan və ya ordan kim təşkil edir? Bu barədə dəqiq məlumat verilmir. Məlumat doğru olsa belə, indiki məqamda bunun baş tutmasını məqbul saymıram. Əgər bütün bunlar sülhün möhkəmlənməsi layihəsi çərçivəsində olunursa, biz bunun əlamətlərini qəti müşahidə etmirik. Belə səfərlərlə bağlı əvvəlcədən hazırlıq aparılmalıdır ki, ictimai rəy buna hazır olsun. Nə Azərbaycan ictimai rəyi, nə də jurnalistikası hər hansı bir hazırlıq mərhələsini keçib. Yəni izah olunmayıb ki, bunlar necə gəlir, necə gedir, nəticə nəyə hesablanır. Gedib kimlə orda görüşəcəklər və ya onlar gəlib burda nə edəcək? Bunlar aydınlaşmayıb. Kimsə bunu gerçəkləşdirirsə, məsələ olduqca çiydir. Bu da xeyirdən çox ziyan gətirə bilər. Mən düşünürəm ki, belə alayarımçıq iş görməyə ehtiyac yox idi. Azərbaycan cəmiyyətində bir müddət əvvəl bunun müzakirəsi aparıldı. Onda biz də öz fikirlərimizi dedik ki, intensiv deyil, məhdud çərçivədə bu cür görüşlərin, gediş-gəlişlərin olmasının əleyhinə deyilik, amma istənilən halda məsələnin tam olaraq şəffaf təqdimatı lazımdır. Həm də bunun üçün uyğun şərait olmalıdır. İndiki halda mən bu şəraiti görmürəm. Çünki Ermənistan rəhbərliyi özünü sülhə yaxın olan tərəf kimi aparmır. Rusiyanın patronajlığı altında keçirilən layihədən isə ümumiyyətlə fayda gözləmirəm. Çünki həmin ölkə işğal faktının arxasında duran dövlətdir".

***Məhəmmədəli QƏRİBLİ***

**Almaniya Azərbaycanlıları Alyansı bir qrup azərbaycanlının deportasiya edilməsi ilə bağlı bəyanat yayıb. "Trend"in məlumatına görə, Alyans bu bəyanatla Almaniya Federativ Respublikasında (AFR) yaşayan soydaşlarımıza müraciət edib. Bəyanatda deyilir:**

# Mühacir insan alverçilərinin Almaniyada aldadılmış soydaşlarımızın başına açdığı müdhiş oyunlar...

*Almaniya Azərbaycanlıları Alyansının bəyanatı qanunsuz mühacirlərlə bağlı qaranlıq məqamları açıqladı*



"Almaniya Azərbaycanlıları Alyansı (AAD) Azərbaycan Respublikasının həm hökumət, həm də qeyri-hökumət qurumları ilə əməkdaşlıq çərçivəsində, eləcə də Almaniyanın müvafiq institutları ilə əlaqəli formada fəaliyyət göstərən Almaniyada rəsmi qeydiyyatdan keçmiş müstəqil qeyri-hökumət təşkilatıdır. AAD təsis edildiyi gündən AFR-də mövcud olan 30-dan çox diaspor təşkilatlarımızın fəaliyyətini koordinasiya etməklə, siyasi, dini və milli mənsubiyyətindən asılı olmayaraq burada məskunlaşmış bütün azərbaycanlılara dəstək olmağa, onların problemlərini öyrənməyə və bu problemlərin həllində kömək lik göstərməyə çalışır. Bu çərçivədə istər siyasi, istərsə də digər əsaslarla Almaniyaya mühacirət etmiş həmvətənlərimizə çətin anlarında tərəfimizdən maddi və mənəvi dəstək göstərilmiş, onların qayğıdan kənar qalmamaları üçün əlimizdən gələni əsirgəməmişik. Fəaliyyətimizdə hər zaman Azərbaycançılıq ideyalarını rəhbər tutmağa, vətənimiz Azərbaycanın nüfuzunu Almaniyada və Avropanın digər ölkələrində yüksəklərə qaldırmağa çalışmış, həmçinin hər bir azərbaycanlının bu yöndə birlikdə səy göstərmələrinin önəmli olduğunu təbliğ etmişik".

Bəyanatda qeyd edilir ki, bəzi vətəndaşlarımız müxtəlif işbazlar tərəfindən aldadılır: "Müşahidələrimizə əsasən, son zamanlar müxtəlif yollarla Almaniyaya gələn və ya müxtəlif işbazlar (mühacir alverçiləri) tərəfindən aldadılaraq buraya gətirilən bəzi soydaşlarımız Almaniyada oturum hüququ əldə etmək və deportasiyadan yayınmaq üçün həmin dələduzlar tərəfindən yüksək dozalı dərman preparatları qəbul etməyə, özlərinə kəsici alətlərlə xəsarət yetirməyə və ya digər bu kimi qeyri-insani addımlar atmağa sövq edilirlər. Bütün bunlar aydındır ki, həmin dələduzların mühacirlərdən müxtəlif yollarla oturum üçün aldıqları vəsaitləri geri ödəməmək və qeyri-müəyyən müddətə vaxt qazanmaları üçün edilir. Hər kəs bilməlidir ki, Almaniyada qalmaq üçün bu kimi Azərbaycan vətəndaşına yaraşmayan qeyri-insani addımların AFR-də oturum hüququnun əldə edilməsi prosesinə heç bir faydası yoxdur və bu hallar yolverilməzdir. Almaniya qanunvericiliyinə əsasən, bu kimi hallar presedent ola bilməz. Özlərinə xəsarət yetirən həmvətənlərin müvafiq tibbi müayinədən sonra dərhal deport edildikləri müşahidə olunur. Ümid edirik ki, Almaniya və Azərbaycan hüquq-mühafizə orqanları həmvətənlərimizi bu hərəkətlərə sövq edən cinayətkarların layiqli cəza almalarını təmin edəcək.

Bunlarla yanaşı, həmin mühacir alverçiləri tərəfindən Almaniyaya qeyri-leqal yollarla gətirilən azərbaycanlıların oturum almaq üçün qeyri-peşəkar siyasi fəaliyyətə də cəlb edildikləri müşahidə edilməkdədir. Bu şəxslər aldadaraq gətirdikləri həmvətənlərimizi özlərinin Almaniyada təsis etdikləri siyasi təşkilatlara üzv etməklə, onları heç bir hüquqi statusu olmayan üzvlük vəsiqələri, saxta sənədlər və "dəstək" məktubları ilə təmin edir, vətəndaşlarımıza bu sənədlərlə Almaniyada oturum ala biləcəklərinə dair yalan informasiya verirlər. Eyni zamanda, həmin şəxslər həmvətənlərimizi özlərinin Azərbaycan dövlətinə qarşı təşkil etdikləri etiraz aksiyalarında iştirak etməyə səsləyir, həmin aksiyalarda çəkilən fotoşəkillərin guya oturum alınması prosesinə töhfə verdiyini bildirirlər.

Nəzərinizə çatdırırıq ki, Almaniya tərəfinin artıq bu kimi aksiyalarda, xüsusən Azərbaycan səfirliklərinin qarşısında təşkil edilən siyasi motivli aksiyalarda iştirak edən soydaşlarımızın oturum işlərinə mənfi cavab verdiyi müşahidə edilir. Almaniyanın Miqrantlar və Qaçqınlar üzrə Federal Agentliyinin (BAMF) mühacirlərimizin işləri ilə bağlı verdiyi qərarlarda qeyd olunan məqamlar söylədiklərimizin əyani sübutudur. Sosial şəbəkələrdə də bu məqamlarla bağlı xeyli informasiyaya rast gələ bilərsiniz.

Əziz azərbaycanlılar!

Bu məlumatları Sizlərin diqqətinə çatdırmağı özümüzə borc bilirik və Sizlərdən özünüzü bu kimi dələduzlardan uzaq durmağa, onların qanunsuz "biznes"lərinin qurbanlarına çevrilməməyə səsləyirik. Dünən Almaniyada həbs olunan azərbaycanlı mühacir alverçilərinin taleyi də söylədiklərimizə bariz nümunədir və bu hər bir mühacir soydaşımız üçün dərs olmalıdır.

Almaniyada və Avropada oturum almağın yeganə yolu yerli cəmiyyətlərə inteqrasiya olunmaqdan keçir. Yaxın gələcəkdə Almaniya Azərbaycanlıları Alyansı olaraq tərəfimizdən təmənnasız qaydada vətəndaşlarımız üçün maarifləndirici tədbirlər təşkil ediləcək".

**Bakıda keçirilən Dünya Dini İderlərinin II Sammitində çıxış edən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi və onun tarixi barədə din xadimlərinə ətraflı məlumat verib. Ölkə başçısı, xüsusilə də bu istiqamətdə ermənilərin etdiyi təhriflərin nədən ibarət olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb:**

# Qarabağ münaqişəsinin kökünü sərrast ifadə edən tezis Bakıya toplaşmış dünya din xadimlərinin müzakirəsində...




## **Dilavər Əzimli:** *"Məhz bizim Türkiyə ilə əlaqələrimizi kəsmək üçün bolşeviklər Zəngəzuru və Göyçə gölü ətrafını onlara verdilər"*

"...Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqda yaşayıb-yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki, bu belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir".

Göründüyü kimi, ölkə başçısı ermənilərin Dağlıq Qarabağın tarixi ilə bağlı oynadıqları "bolşeviklər faktoru"na da tam aydınlıq gətirib. Ölkə başçısı deyib ki, Qarabağ hər zaman Azərbaycanın olub və bolşeviklər onu bizə yenidən verməyiblər, bizim tərkibimizdə qaldığını bir daha təsdiqləyiblər.

*"Bölşeviklər bizdən torpaq alıb ermənilərə verib, bizə kiminsə torpağını verməyib"*

Tarix üzrə fəlsəfə doktoru, dosent Dilavər Əzimli qəzetimizə bildirdi ki, Dağlıq Qarabağ hər zaman Azərbaycanın tarixi torpağı olub:"Bolşeviklər bizə niyə onu verirdi ki? Əksinə, bolşeviklər onlara qanunsuz olaraq muxtariyyət verdilər. Mən istərdim ki, bunu tarixi dəlillərlə sizin nəzərinizə çatdırım. Qarabağ adı XVIII əsrdən sonra daha çox işlənməyə başlayıb. 14-cü əsrdən başlayaraq da tarixi mənbələrdə bu ada rast gəlirik. Türk dövlətlərinin rəhbərləri hər zaman həmin gözəl diyarda dincəlməyi sevərdilər. "Bu tərəfdə Qarabağdı, o tərəfdə Qaradağ, biri gözəl qız olub, digəri oğlan, aralarından axan Araz onları qovuşmağa qoymayıb". Saxtakar ermənilərdə belə rəvayət və ya əfsanə varmı? Varsa, göstərsinlər mənə. 1828-29-cu ildən sonra Türkmənçay və Ədirnə müqavilələrinin şərtlərinə görə, çar Rusiyası erməniləri kütləvi şəkildə özlərinə lazım olan yerlərə köçürdü. Sonra biz məcbur qaldıq, İrəvanı güzəştə getməli olduq. Sonra Qarabağ məsələsi ortaya çıxdı. Rusiyanın böyük planına əsasən onlar strateji yerlərdə məskən saldılar. Sonra Qars müqaviləsinin şərtləri pozuldu. Orda sərhədlərin toxunulmamazı məsələsi var idi. Məhz bizim Türkiyə ilə əlaqələrimizi kəsmək üçün bolşeviklər Zəngəzuru və Göyçə gölü ətrafını onlara verdilər. Bütün bu torpaqlar tarixi Azərbaycan əraziləridir. Biz anti-terror əməliyyatı keçirib, həmin əraziləri azad etməliyik. Bölşeviklər bizdən torpaq alıb ermənilərə veriblər, bizə kiminsə torpağını verməyiblər".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Bakıda müxtəlif dini konfessiya, təriqət liderlərinin, müxtəlif ölkələrin siyasi, ictimai, elm, din xadimlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə Dünya dini liderlərinin II Bakı Sammiti keçirilib. Nöyabrın 15-də başa çatan sammitdə bir sıra mühüm məsələlər gündəmə gətirilib, müzakirə edilib.**

# Azərbaycan gələcək inkişafını milli köklər üzərində qurur - Prezidentin dünya xadimlərinə dediyi bu sözlərin hansı gücü var...



## **Buludxan Xəlilov:** *"Azərbaycan Prezidentinin Azərbaycanın bir ölkə kimi öz gələcəyini, inkişafını milli dəyərlər üzərində qurması ilə bağlı qeyd etdiyi fikrin çox böyük siyasi və mənəvi təsir gücü, mənası var"*

Sammitin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir sıra mühüm məsələləri qeyd edib, dünya dini liderlərinə ölkəmizin uğurlarından, nailiyyətlərindən bəhs edib. Prezident İlham Əliyev Azərbaycanın öz gələcəyini milli köklər üzərində qurduğunu da deyib:"...Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır..."

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Buludxan Xəliov bizimlə söhbətində bildirdi ki, Prezidentin dünya dini liderləri qarşısında belə əhəmiyyətli fikirlər səsləndirməsi Azərbaycan dövlətinin həyata keçirdiyi, yürütdüyü siyasətin mahiyyətini açıqlayıb. B.Xəlilovun sözlərinə görə, bu gün Azərbaycan dövləti milli kökdən rişələnərək inkişaf edir və dünyaya multikulturalizm, tolerantlıq, humanizm kimi böyük dəyərlər, nümunələr bəxş edir. B.Xəlilov qeyd etdi ki, Azərbaycan dövləti xalqımızın tarixən sahib olduğu milli-mənəvi dəyərləri qoruyur və öz inkişafını o dəyərlər, milli köklər üzərində davam etdirir:"Ümumiyyətlə, Azərbaycanda son dövrlər həyata keçirilən siyasətin əsas xəttini təşkil edən amil müxtəlif dini görüşlərə malik olan ölkələrin dini liderləri ilə əlaqələrin yaradılması, onların ölkəmizə gəlməsidir. Azərbaycan bu cəhətdən tarixən sahib olduğu və bu gün də davam etdirdiyi tolerantlığı qoruyub saxlayır, bütün dinlərin nümayəndələrinə, dini dəyərlərə hörmət göstərir. Doğrudan da bu dünyəvi bir düşüncədir və Azərbaycan siyasətində olan, bütün tələblərə cavab verən siyasi, mənəvi, mədəni düşüncədir. Amma eyni zamanda, bu siyasətin əsas tərkib hissəsindən biri ondan ibarətdir ki, biz nə qədər dünyəviləşsək də, tolerant olsaq da, dünyanın bütün dinlərinə hörmət etsək də, öz dəyərlərimiz, milli köklərimiz üzərində inkişaf etməyi əsas götürmüşük. Bu çox vacib məsələdir və Azərbaycanın dövlət siyasətində də mühüm yer tutur. Dünyanın özü də milli dəyərlər, milli köklər üzərində inkişaf edən xalqlara, dövlətlərə xüsusi dəyər verir, hörmətlə yanaşır. Son dövrlər Azərbaycanda müxtəlif istiqamətdə keçirilən tədbirlər, o cümlədən də dünya dini liderlərin Bakı sammiti, digər bu qəbildən olan toplantılar Azərbaycana böyük hörmət gətirir. Bu mənada ki, Azərbaycanın dövlət siyasəti həm dünya dinlərinə hörmət təlqin edir, həm də milli köklər üzərində qurulmuş dinlərə, siyasi baxışlara, fikirlərə sayğı ilə yanaşır. Ona görə də, Azərbaycan milli köklər, milli təməllər üzərində inkişaf etməklə öz gələcəyini qurub və gəncliyini milli vətənpərvərlik ruhunda inkişaf etdirməyə nail olub. Bu gün Azərbaycançılıq ideologiyasının tam şəkildə bərqərar olmağında milli təməllər üzərində inkişaf aparıcı mövqedə olmalıdır. Belə olmasa, Azərbaycançılıq məfkurəsi, Azərbaycançılıq təmayülü möhkəmlənə bilməz. Çünki Azərbaycan cəmiyyəti yalnız orta və yaşlı nəsildən ibarət deyil, eyni zamanda da uşaqlardan, yeniyetmələrdən, gənclərdən ibarətdir.

Azərbaycan Prezidentinin Azərbaycanın bir ölkə kimi öz gələcəyini, inkişafını milli dəyərlər üzərində qurması ilə bağlı qeyd etdiyi fikrin çox böyük siyasi və mənəvi təsir gücü, mənası var".

Azərbaycan Prezidentinin apardığı siyasətin təməlində bu kimi amillərin dayandığını deyən B.Xəlilov hesab edir ki, harada yaşayıb-işləməyimizdən asılı olmayaraq, hər kəs milli köklərə bağlı olmalı və Azərbaycançılıq məfkurəsinə sadiq qalmalıdır.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Lavrovun İrəvanda verdiyi bəyanatlardan sonra, ermənilərin gözləntilərinin əksinə olaraq, Azərbaycanın mövqeləri daha da möhkəmləndi...

## Bakı Moskvadan istədiyi izahatı aldı

**Məlumdur ki, noyabrın 10-11-i Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Ermənistana səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinə dair bir neçə açıqlama verib. Rusiya XİN-in başçısı bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin birdəfəlik həlli üçün bütün prinsiplər - ərazi bütövlüyü, xalqların öz müqəddəratını təyinetmə hüququ və sülh yolu ilə həll olunması nəzərə alınmalıdır.**

Sergey Lavrov bu bölgənin əhalisinin razılığı olmadan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı anlaşma əldə olunmasının mümkünsüzlüyünü söyləyib.

Düzdür, burada Lavrov "Qarabağ xalqı" sözünü də işlədib, amma bu ifadəsini işlədəndən dərhal sonra da düzəliş edərək onu "Qarabağ əhalisi" ifadəsi ilə əvəzləyib. Bunu Lavrovun erməni həmkarı Zöhrab Mnatsakanyanla keçirdiyi birgə mətbuat konfrasının videoyazısından da aydın görmək olar. Amma istənilən halda, baş rus diplomatının bu səhvinə Azərbaycan tərəfindən müvafiq reaksiya verilib. Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması Lavrovun fikirləri ilə bağlı ayrıca bəyanat yayıb. Burada qeyd olunur ki, münaqişənin həllinə məsul olan ATƏT-in Minsk prosesi çərçivəsində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları maraqlı tərəflər kimi müəyyən olunub. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mühüm beynəlxalq təşkilatların sənədlərində də heç vaxt "Dağlıq Qarabağ xalqı" məfhumu qeyd edilməyib. Bir daha qeyd olunur ki, "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət olub. Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva isə məsələ ilə bağlı bildirib: "Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təklif olunan istənilən planın tərkib hissəsidir".

Aydındır ki, Bakının məsələyə həssas reaksiyasını Rusiyada da yaxşı başa düşürlər. Rus ekspertlərin səsləndirdiyi fikirlərdən isə belə bəlli olur ki, əslində, Lavrov "Dağlıq Qarabağ xalqı" anlayışını səhvən işlədib və bu səhvini dərhal başa düşdüyü üçün onu Dağlıq Qarabağ əhalisi sözü ilə əvəzləyib. Bununla belə, rusiyalı analitik Vadim Dubnov qeyd edir ki, Moskva bu məsələ ilə bağlı Bakı üçün pərdəarxası izahatlar da verib. Bu isə o deməkdir ki, erməni mediasında bir neçə gündür Lavrovun dediyinin xüsusi olaraq qabardılması, əslində növbəti dəfə fiaskoya uğramış aksiya olub. Dubnovun sözlərinə görə, Rusiya Qarabağ məsələsinə yanaşmada Azərbaycanın ərazi bütövlüyünü əsas götürür: "Bu səbəbdən Lavrovun fikirləri ilə bağlı, hesab edirəm ki, artıq Azərbaycan tərəfinə pərdəarxası açıqlama verilib. Üstəlik hesab edirəm ki, yaxın günlərdə Bakıya da səfər ediləcək və bu səfər sevilən mühitdə baş tutacaq. Rus tərəfi Azərbaycanın siyasi xadimlərinə borclu olduğu şeyi Bakı səfərində qaytaracaq". Analitik qeyd edib ki, Azərbaycandan fərqli olaraq, Rusiyanın bu gün Ermənistanla problemlərinin olmasını da Moskvada unutmurlar.

Rusiya Federasiyasının İctimai Palatasının üzvü Sergey Markovun da məsələ ilə bağlı fikirləri olduqca maraqlıdır: "Rusiya xarici işlər naziri Ermənistana səfəri zamanı Dağlıq Qarabağ sakinlərinə münasibətdə iki mövqedən çıxış etdi: "xalq" və dərhal sonra "əhali". Bunu Lavrovun yol verdiyi yanlışlığı düzəltmək cəhdi kimi də qiymətləndirmək olar. Məlumdur ki, Ermənistanın baş naziri Nikol Paşinyan dəfələrlə Dağlıq Qarabağın danışıqlarda iştirak etməsini təklif edib. Lakin o, üçüncü tərəf kimi məhz Dağlıq Qarabağın erməni icmasını nəzərdə tuturdu. Buna cavab olaraq, Bakı haqlı olaraq qeyd etdi ki, Qarabağın erməni icması ilə yanaşı, bu vəziyyətdə danışıqlarda iştirak etməli olan azərbaycanlı icması da var. Beynəlxalq hüquq prinsipləri bunu tələb edir, çünki danışıqlar prosesi etnik təmizləmənin nəticələrini legitimləşdirməməlidir. Və Qarabağda yalnız erməni icması qalıb, azərbaycanlılar sadəcə, etnik təmizləmə nəticəsində qovulub. Yeri gəlmişkən, bu mənada, Xocalı soyqırımı çox vacib rol oynadı. Sergey Lavrov və digər Rusiya rəsmiləri də Dağlıq Qarabağın siyasi subyektivliyini rədd edir, deyir ki, müxtəlif əhali qruplarının rəyi nəzərə alınmalıdır. Düşünürəm ki, Sergey Lavrova birbaşa sual verilsəydi, birbaşa da cavab verərdi ki, qaçmaq məcburiyyətində qalan Dağlıq Qarabağın azərbaycanlı icması nümayəndələrinin fikirləri hansısa kompromis həll yolu işləyərkən nəzərə alınmalıdır".

Ekspert bildirir ik, burada digər maraqlı nüans da var:"İrəvanda Rusiya Xarici işlər naziri həll prinsiplərini açıqlayıb. O, ərazi bütövlüyünü birinci, sonra xalqların öz müqəddəratını təyinetmə hüququnu, üçüncüsü, sülh yolu ilə nizamlanmanı adlandırıb. Sergey Lavrovun səsləndirdiyi prinsiplər çoxdan bəllidir. Bu, BMT prinsiplərinin təkrarlanmasıdır. Rusiya xarici işlər nazirinin sözləri, fikrimcə, bir az olsa da, Azərbaycanın xeyrinə idi, çünki ilk növbədə ərazi bütövlüyünü müzakirəyə qoyub. Lakin əlbəttə ki, müzakirələr birlikdə həyata keçiriləcək və yalnız bundan sonra işə başlayacaqlar. Bundan əlavə, öz müqəddəratını təyinetmə yalnız Dağlıq Qarabağın erməni icması üçün deyil, həm də Azərbaycanın başqa bir hissəsində yaşamağa məcbur olan Azərbaycan icması üçün də həyata keçirilməlidir. Onların da həqiqi seçimi birmənalıdır - Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi olmalıdır".

Burada bir məqamı da xatırladaq ki, Dağlıq Qarabağ münaqişəsində tərəf ölkələr Ermənistan və Azərbaycandır, bu da bütün beynəlxalq hüquq sənədlərində təsbit edilib. Dağlıq Qarabağın azərbaycanlı və erməni icması isə konfliktin çözümü istiqamətində irəliləyiş olacağı təqdirdə danışıqlar prosesinə cəlb oluna bilər. Hazırda bu irəliləyiş müşahidə edilmədiyindən onlar danışıqlar prosesindən kənarda saxlanır. Qəbul edilmiş beynəlxalq hüquqi sənədlərdə isə "Dağlıq Qarabağ xalqı" ifadəsi mövcud deyil. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildən qəbul etdiyi və hüquqi öhdəlik daşıyan 4 qətnaməsinə əsasən də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Rəsmi Bakının dəfələrlə qeyd etdiyi kimi, münaqişənin həlli, o cümlədən öz müqəddəratını təyinetmə hüququnun icrası yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həyata keçirilə bilər. Yeri gəlmişkən qeyd edk ki, Prezident İlham Əliyev dünya dini liderlərinin II Bakı Sammitində çıxışı zamanı bir daha dünyanın diqqətinə çatdırdı ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır: "Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır". Bakının bu konkret mövqeyi, Rusiya da daxil olmaqla, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bəyanatlarında da birmənalı şəkildə öz əksini tapıb. Şübhəsiz ki, bütün bu qeyd edilənlər Sergey Lavrova da yaxşı məlumdur. Elə bu səbəbdən, rusiyalı analitik Vadim Dubnovun da qeyd etdiyi kimi, Moskva pərdəarxası fonda Azərbaycana müvafiq izahatlar verib və bu xüsusda Rusiya rəsmilərinin Azərbaycanı qane edəcək yeni bəyanatlar səsləndirməsi də gözləniləndir. Sergey Lavrovun səfəri ilə bağlı "Moskva-Baku" portalında dərc olunmuş məqalədə də hadisələrin məhz bu istiqamətdə inkişafı istisna olunmur. Portal yazır ki, Rusiyanın Ermənistandan ciddi narazılığı da buna təsir edir. Qeyd olunur ki, əslində, Lavrovun səfəri də bu narazılıqdan irəli gəlib. Belə ki, Rusiya Ermənistan ərazisində Pentaqonun pulu ilə yaradılan bioloji laboratoriyaların mövcudluğundan narahatdır. Qeyd edilir ki, Lavrovun səfəri zamanı rusiyalı mütəxəssislərin Ermənistan bioloji laboratoriyalarına buraxılması ilə bağlı memorandum imzalanmayıb. Buna baxmayaraq, erməni jurnalistlər Rusiya diplomatik idarəsinin rəhbərindən birbaşa soruşublar: "Demək olar ki, bioloji laboratoriyalar məsələsi Ermənistan-Rusiya münasibətlərinin gündəliyindən problemli məsələ olaraq çıxarılıb?". Lavrov isə kifayət qədər əsəbi şəkildə cavab verib ki, əvvəlcə memorandum imzalanmalı, sonra isə onu həyata keçirməyə başlamalıyıq. Məsələ ilə bağlı portala müsahibə verən politoloq Yevgeni Mixaylov deyib ki, Moskva Ermənistan ərazisində bioloji laboratoriyaların yerləşməsi məsələsini ciddi şəkildə araşdırır:"Deyə bilərəm ki, onların təyinatı ilə bağlı çox böyük şübhələrim yaranıb. Onların bütün izahatları, o cümlədən bu biolaboratoriyaların guya xəstəliklərin qarşısını almaq üçün fəaliyyət göstərdiyi fikri az inandırıcıdır. Nə qədər qəribə olsa da, Ermənistanda olduğu sayda laboratoriyaya heç harda rast gəlmək mümkün deyil. Mənim məlumatıma görə, onların sayı praktik olaraq 10-a yaxındır. Rusiya ilə Ermənistan arasında memorandumun imzalanmaması, eyni zamanda Ermənistan xarici işlər nazirinin İrəvanın ABŞ-a belə bir laboratoriya yaratdığına görə minnətdar olması barədə açıqlaması bir çox suallar doğurur. Ermənistan ABŞ-a təşəkkür edir. Sual: nəyə görə? Çünki bəzən viruslar bu laboratoriyalardan çıxır və biz eşidirik ki, həmin Ermənistanda gözlənilmədən Sibir xorası və digər xəstəliklər baş qaldırır və sair. Bunun üçün ABŞ-a təşəkkür edirlər? Bütün bunlar hamısı, əlbəttə, kədərlidir".

Y.Mixaylov qeyd edib ki, bir neçə il əvvəl rusiyalı alimlər bu biolaboratoriyaların şöbələrinə qismən buraxıldılar: "Sonra dedilər ki, yox, biz bunu göstərməyəcəyik. Bu o deməkdir ki, Ermənistan laboratoriyalarında bioloji təhlükə metodları birmənalı şəkildə inkişaf etdirilir. Məhz buna görə də Ermənistan Rusiyanı bu laboratoriyalara buraxmır". Ekspert qeyd edib ki, amerikalılar bu gün Ermənistan rəhbərliyinə ciddi təsir göstərirlər:"ABŞ-da Ermənistana sadəcə deyirlər ki, rusları bu laboratoriyalara buraxmaq olmaz. Bu vəziyyətdə Moskvanın İrəvandan razı qalması qeyri-mümkündür. Aydındır ki, bu halda Qarabağ məsələsində də Rusiya Ermənistanın yanında yer ala bilməz. Rusiya üçün teztez mövqe dəyişən Ermənistandansa, Azərbaycanla münasibətlər daha səmərəlidir. Bundan Rusiya böyük fayda götürür və bunu Lavrov da yaxşı bilir". Bütün bunlar Azərbaycanın Qarabağ məsələsində mövqeyini daha gülü hala gətirən faktorlar kimi də dəyərləndirilir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Qarabağ müharibəsində Azərbaycanın komandirləri arasında Şamil Basayevin, Gülbəddin Hikmətyarın da adları var - inanılmaz təhrifin arxasında kim durur...

**Virtual ensiklopediya statusunu qazanmış Vikipediada Azərbaycanla bağlı məlumatlar saxtalaşdırılır."Vikipediya" Açıq Ensiklopediyasında Dağlıq Qarabağla bağlı kifayət qədər təhrif olunmuş məlumatlara rast gəlinir. Bu məlumatlarda Dağlıq Qarabağın gerçək tarixi saxtalaşdırılır, onunla bağlı həqiqətə uyğun olmayan fikirlər yerləşdirilir.**

***Firdovsiyyə Əhmədova:*** *"Mütəxəssislərin iştirakı ilə Vikipediyaya yerləşdirilən yanlış materialların qarşısını almaq olar"*

***Faiq Ələkbərli:*** *"Vikipediyada çalışanların bir qismi bilərəkdən doğru olmayan məqalələrin yayılmasına səbəb olur"*



Biz çox zaman belə məqalələrlə rastlaşarkən bunun ermənilər tərəfindən yazılıb yerləşdirildiyini qeyd edirik. Bu bir həqiqətdir. Lakin çox təəssüf ki, bu işdə erməni dəyirmanına su tökən azərbaycanlıların da fəaliyyətinə rast gəlirik. Bu tip məqalələrin azərbaycanlılar tərəfindən hazırlanmasına heç bir şübhə yoxdur.

Vikipediyada yerləşdirilən "Qarabağ müharibəsi" haqqındakı məqalələrdən biri diqqətimizi cəlb etdi. Bu məqalədə Dağlıq Qarabağ müharibəsində Azərbaycan komandirləri sırasında Çeçen lideri Şamil Basayevin və Əfqanıstan Taliban hərəkatının rəhbərlərindən olan Gülbəddin Hikmətyarın adının yer alması həqiqətən də tarixin ciddi şəkildə təhrif olunmasıdır.

Bundan əlavə, məqalə ilə tanış olarkən müəllif separatçı qurumu "Qondarma Dağlıq Qarabağ respublikası" kimi təqdim edir. Məlumdur ki, ermənilər isə heç zaman "qondarma" sözünü işlətmir.

Tarix elmləri doktoru Firdovsiyyə Əhmədova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Vikipediyada yerləşdirilən materiallar tam etibarlı mənbə kimi qəbul oluna bilməz. Ancaq informasiya baxımından ciddi təsir imkanına malik məkandır. Nəzərə almaq lazımdır ki, insanlar informasiya əldə etmək üçün ilk növbədə Vikipediyaya üz tutur: "Bu sahədə mütəxəssis olan şəxslər virtual ensiklopediyada yayılan materialların yanlış olduğunu biləndə onu düzəltmək istəyəndə texniki imkanlara malik olmur".

Həmsöhbətimiz onu da vurğuladı ki, ermənilər qərəzli şəkildə Azərbaycan tarixini saxtalaşdıran xəritə və ya materiallarla Vikipediyada çıxış edirlər. Bu artıq adi hal alıb: "Bu yanlışlığı təkzib etmək və ya müzakirə aparmaqla problemi həll etmək mümkün deyil. Mütəxəssislərin iştirakı ilə Vikipediyaya yerləşdirilən yanlış materialların qarşısını almaq olar".

**Tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli də qəzetimizə açıqlamasında vurğuladı ki, Vikipediyada qeyri-dəqiq informasiyalar mütəmadi olaraq yayımlanır:"Vikipediyada Dağlıq Qarabağın Qondarma Dağlıq Qarabağ Respublikası kimi göstərilməsi onu deməyə əsas verir ki, orada peşəkar kadrlar çalışmır. Onu da bildirim ki, Vikipediyada çalışanların bir qismi bilərəkdən doğru olmayan məqalələrin yayılmasına səbəb olur.**

***Günel CƏLİLOVA***

# Erməni lobbisinin Los Anceles sinaqoqunda Qarabağ həqiqətlərinə həsr olunmuş tədbiri pozmaq cəhdləri uğursuz oldu

**Los Ancelesdə fəaliyyət göstərən, ABŞ-ın ən böyük yəhudi sinaqoqlarından olan Nessah Sinaqoqunda Ermənistanın Azərbaycana qarşı işğalçılıq və etnik təmizləmə siyasətinin ifşasına həsr olunmuş geniş tədbir keçirilib.**




Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan "Bakı Xəbər"ə verilən məlumata görə, 400-dək iştirakçının, o cümlədən tanınmış din xadimlərinin, müxtəlif nüfuzlu yəhudi təşkilatlarının rəhbərlərinin, jurnalistlərin, elm və mədəniyyət xadimlərinin, universitet professorlarının, xarici ölkələrin diplomatlarının qatıldığı tədbir Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun təşəbbüsü və dəstəyilə keçirilib.

Konsulluğun xəbərinə görə, yarım milyon erməninin yaşadığı və Nikol Paşinyanın "erməni diasporu"nun paytaxtı adlandırdığı Los Ancelesdə Qarabağ həqiqətlərinin obyektiv şəkildə təqdim olunması yerli erməni lobbisini narahat edib. Ancaq erməni lobbisinin tədbirin qarşısını almaq cəhdləri uğursuzluqla nəticələnib.

Tədbirdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyev, icma üzvləri Gülməmməd Məmmədov və Xocalı şahidləri Dürdanə Ağayeva və Ceyhun Ələkbərov da iştirak edib.

Azərbaycanın, ABŞ-ın və İsrailin dövlət himnlərilə başlayan tədbirdə Azərbaycan himninin son sözləri bütün tədbir iştirakçıları tərəfindən birgə ifa edilib.

Tədbirdə çıxış edən Sinaqoqun baş ravvini Devid Şofet, Sinaqoqun rəhbərlərindən olan İsaak Yomtovian və Aşe Eşağpur, eləcə də IAJF təşkilatının prezidenti Susan Əzizzadə dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan antisemitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamalarının, tam dini etiqad azadlığına malik olmalarının olduqca təqdirəlayiq olduğunu qeyd edərək, buna görə Azərbaycan Prezidentinə və xalqına təşəkkürlərini çatdırıblar.

Sonra çıxış edən Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev multikulturalizmin bir dövlət siyasəti kimi bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında böyük uğurla həyata keçirildiyini, Azərbaycan tolerantlığının bütün dünyaya gözəl bir örnək olduğunu vurğulayıb.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və etnik təmizləmə siyasəti barədə geniş məlumat verən N.Ağayev bu ədalətsizliyin bu gün də davam etdiyini diqqətə çatdırıb. Diplomat bildirib ki, həm işğal, həm də azərbaycanlı məcburi köçkünlərin elementar insan haqlarının Ermənistan tərəfindən kobudcasına pozulması barədə ABŞ ictimaiyyətini məlumatlandırmaq üçün Dağlıq Qarabağın azərbaycanlı icması Los Ancelesə səfərə gəlib və bu onların icma olaraq xaricə ilk səfəridir.

Daha sonra çıxış edən Tural Gəncəliyev, Gülməmməd Məmmədov və Dürdanə Ağayeva Ermənistanın təcavüzü nəticəsində özlərinin və ailə üzvlərinin məruz qaldıqları iztirabları, işğal olunmuş ərazilərdə məcburi köçkünlərə məxsus evlərin dağıdılması, ya da satışa çıxarılması, tarixi, dini və mədəniyyət abidələrimizin, qəbirstanlıqların tamamilə məhv edilməsi və ya alçaldılması kimi vəhşilikləri konkret faktlarla bölüşüblər.

Tədbir iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. İştirakçılar Azərbaycana qarşı bu ədalətsizliyi qınadıqlarını bildirərək, bu haqda əldə etdikləri məlumata görə təşəkkürlərini bildiriblər.

***Baki-xeber.com***

# Almaniyada cinayət faktına Müsavat Partiyasından gecikmiş və yarımçıq reaksiya...

**Artıq iki gündür ki, Müsavat Partiyası fəallarının Almaniyada saxta mühacir alveri ittihamı ilə həbs olunmaları ətrafında aparılan müzakirələr siyasi gündəmdən düşmür. Qeyd edək ki, alman polisinin reydləri zamanı 60-a yaxın şəxsin saxlandığı deyilir.**




Onların arasında Müsavatın Avropa qanadının rəhbərliyində təmsil olunan və daima partiyaya dəstək verən şəxslər var. Maraqlıdır ki, hadisənin ilk günü ərzində Müsavat rəhbərliyi heç bir açıqlama verməyib. Bizim də bu istiqamətdə etdiyimiz cəhdlər uğursuz alındı. Yalnız gecə saatlarında partiyanın başqanı Arif Hacılı öz "Facebook" səhifəsində məsələnin mahiyyətilə uzlaşmayan bir status paylaşdı. Müsavat rəhbərinin fikirlərini olduğu kimi təqdim edirik:

"Avropadan soydaşlarımız deport olunur. Onların öz məqsədi var. Ərazisində miqrantların sayını mümkün qədər azaltmaq hər Avropa ölkəsinin dövlət siyasətidir. Azərbaycanda nə baş verir? Bu olaydan hərə öz məqsədi üçün yararlanmağa çalışır. Real TV və başqa dövlət kanalları şadyanalıq edir. Biriləri bundan siyasi opponentlərə qarşı istifadə etməyə çalışır. Deport olunanlar arasında bir neçə ailə, xeyli çocuqlar var. Onları ən azı saxlanma, aşağılanma, sorğu-sual gözləyir. O qadınların, çocuqların üzüntüsünü, ürəklərinin sızıltısını, o üzüntüyə görə məhv olan ataların iztirabını düşünürsüzmü? Onlar Avropaya kefindən getməmişdilər. Bu yolla həyatlarını xilas etmək istəyirdilər. Bu da alınmadı. Nəyə sevinirsiniz? Nəyi bayram edirsiniz? Biz ki, belə amansız millət deyilik?! Bizə nə oldu?"

Şox maraqlıdır ki, Arif Hacılı bu statusu ilə sanki diqqəti gündəmdə olan mövzudan başqa istiqamətə yönəltməyə çalışıb. Təbiidir ki, uşaqlı azərbaycanlı ailələrin deport olunması bizim üçün də xoş deyil. Ancaq yaxşı olardı ki, Arif Hacılı Avropada müsavatçılardan ibarət böyük bir dəstənin cinayət başında yaxalanması və "bu işdə partiya rəhbərlərinin də əli var" iddialarına aydınlıq gətirsin. Müsavat Partiyası rəhbərliyinin bu ittihamları cavablandırmaq gücündə olmadığını konkret faktlara əsasən telejurnalist Mahir Məmmədli də öz statusunda yazıb: "Gəlmişik Müsavat Partiyasının başqanı Arif Hacılıdan müsahibə almağa. Özü qərargahda olmasa da, köməkçisi ilə xəbər göndərdi ki, müsahibə vermək istəmir. Biz isə israr elədik. Çünki söhbət çox ağır ittihamlardan, Arif Hacılının özünün yazdığı kimi, evlərini satıb saxta mühacirlik üçün külli miqdarda vəsait ödəyən insanların aldadılmasından, ailələri ilə Almaniyadan deportasiya edilməsindən gedir.

Arif Hacılı isə qərargha gəlmək, ittihamlara cavab vermək əvəzinə bizə Facebook-dan söz göndərir. Bilirsiniz niyə? Çünki deyəcək sözü yoxdur. Partiya sədri bir jurnalistin sualından çəkinib öz qərarhagına gəlmir. Onun statusunun altındakı şərhlərdə bizi linçlə hədələyirlər. Arif Hacılı isə bu şərhə münasibət bildirmir. Arif Hacılı bilir ki, saxta mühacir əməliyyatının başlamasında jurnalistlərin rolu olub. Məhz biz saxta arayışları, saxta möhürləri nümayiş etdirmişdik".

Qeyd edək ki, Müsavat rəhbərliyinin hadisəyə münasibət bildirməməsi tanınmış müsavatçıların da etirazına səbəb olub. ABŞ-da yaşayan tanınmış müsavatçı Ramiz Yunus oz "Facebook" səhifəsində Arif Hacılını istefaya çağıraraq bunları yazıb:"Gəlin hər şeyi öz adi ilə adlandıraq: Almaniyadakı mühacirlərə saxta sənədlərin verilməsi ilə bağlı yaşanan qalmaqal bir daha Müsavat Partiyasının imicinə zərbə vurdu və Alman federal polisi tərəfindən açılmiş cinayət işində adı hallanan Avropada bu partiyanın AKM adi altında yaradilan mərkəzinin təşəbbüskarı şəxsən indiki başkan Arif Hacılıdır. Bütün sivil dünyada belə hallarda partiyanı zərbədən uzaqlaşdirmaq üçün onun rəhbəri istefa verir və məhz buna görə, hörmətli Arif bəy, istefa mədəniyyətini göstərməyinizi və bu biabırçı vəziyyətin öhdəsindən gəlmək üçün növbədənkənar partiya qurultayını çağırmağı məsləhət görürəm".

Müsavat rəhbərliyindən Avropada baş verən həbslərlə bağlı mövqe öyrənə bilmədiyimiz üçün "belə vəziyyətdə partiya hansı reaksiyaları verməlidir" sualı ilə kənar bir ekspertə müraciət etdik. Hüquqşunas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, burdan konkret nəticə çıxarmaq olar: "Deməyə sözləri yoxdur ki, yayınırlar. Nə deyəcəklər? Arif Hacılı deyə bilməz ki, Mehdi Xəlilbəylini tanımır. Bundan əlavə, Mehdi Xəlilbəyli və digərlərinin əməllərinə haqq qazandıra bilməz. Onlar barədə partiyadan çıxarılma qərarı çıxarsalar da vəziyyət yaxşı olmaz. İstintaqda Müsavat rəhbərliyi barədə "yağlı" ifadələr verə bilərlər. Bütün bunlar Müsavat rəhbərliyini çıxılmaz vəziyyətə salıb. Məhz bu səbəbdəndir ki, Arif Hacılının ilk açıqlaması bir qədər təsirli notlar üzərində quruldu və tamamilə başqa mövzunu əhatə etdi. Ancaq biz sıravi, lakin tanınmış müsavatçıların dünyanın müxtəlif ölkələrindən bu məsələyə kəskin reaksiya verdiklərini görürük. Hətta həmin mövqelərin əksəriyyətində Arif Hacılı istefaya çağırılır. Müsavat rəhbərliyinin başqa bir narahatlığı istintaqın bir qolunun da onlara qədər uzana biləcəyi ilə bağlıdır. Artıq ölkəyə qaytarılan vətəndaşlar var. Onların izahatlarından sonra bir çox mətləblərə aydınlıq gələcək. İstənilən halda, bu hadisə həm hüquqi, həm siyasi, həm də mənəvi baxımdan Müsavatın imicinə böyük zərbə vurdu. Yaqin ki, yaxın zamanlarda məhz bu hadisəyə görə partiyadan kütləvi istefaların olacağını da müşahidə edəcəyik".

*Məhəmmədəli*
**QƏRİBLİ**

# Trampla Ərdoğanın söhbətləri ABŞ-da erməni lobbisinin "burnunu ovdu"

**ABŞ Konqresinin Nümayəndələr Palatasında qondarma "erməni soyqırımı" ilə bağlı məlum qətnamədən sonra İrəvan bunu mühüm diplomatik qələbəsi kimi bayram edərək, Vaşinqtonda yeni nailiyyətlər əldə edəcəyini iddia edirdi.**

Amma Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Vaşinqtona səfəri ermənilərin bu sevincinin uzun sürməsinə imkan vermədi. Məsələ ilə bağlı "armenianreport" portalı yazır ki, erməni məsələsindən ABŞ, sadəcə, öz niyyətləri üçün istifadə etməyə çalışdı və reallıqda Türkiyənin onun üçün ön planda olduğunu göstərdi. O da vurğulanır ki, bu hal erməni lobbisinin ABŞ-da daha bir uğursuzluğu oldu: "Bundan əvvəl də erməni lobbisi ABŞ-ın Azərbaycana daha çox yardım ayırmasını əngəlləyə bilmədi. Soyqırım məsələsində də sevinc uzun sürmədi. Buna qarşı aparılan işlər Türkiyə üçün müsbət nəticələrini versə də, bizim lobbi üçün yeni məğlubiyyət oldu. Türkiyə və Azərbaycan lobbisi ABŞ-da xeyli fəallaşıb və onlar yəhudilərdən də dəstək alır".

Xatırladaq ki, erməni lobbisi prosesin qarşısını almaq üçün Rəcəb Tayyib Ərdoğanın Vaşinqtona səfərini əvvəldən əngəlləmək istəyirdi. Belə ki, bu səfərin qarşısını almaq üçün ABŞ Konqresinin Nümayəndələr Palatasının, 15-i Demokratlar Partiyasından olmaqla, 17 üzvü Donald Trampa məktub yazaraq Türkiyə liderinin səfərini ləğv etməyə çağırmışdı: "Ərdoğanın ABŞ-a səfər etməsi son dərəcə yersiz hadisədir. Bu dəvət geri çəkilməlidir". Müraciəti Nümayəndələr Palatasının Xarici Əlaqələr Komissiyasının sədri, Demokratlar Partiyasının üzvü Eliot Engel hazırlamışdı. Məktub müəllifləri hesab ediblər ki, Türkiyənin Suriyanın şimal-şərqində başlatdığı antiterror əməliyyatı ABŞ-ın milli təhlükəsizliyi baxımından fəlakətlə nəticələnər: "Bu, NATO daxilində dərin çatlar yaradar". Məktub müəllifləri Donald Trampı inandırmaq üçün NATO müttəfiqi olan Türkiyənin S-400 almasını, Rusiya ilə yaxınlaşmasını da vurğulayıblar. Rəcəb Tayyib Ərdoğan isə səfərdən əvvəl hava limanında bildirmişdi ki, Türkiyə-ABŞ əlaqələri sancılı bir dövrdən çıxacaq.



Hər halda, bütün maneələrə baxmayaraq, Donald Trampla Rəcəb Tayyib Ərdoğanın görüşü gerçəkləşdi. 1 saat 15 dəqiqə davam edən görüşdən sonra prezidentlər problemli məsələləri əsaslı surətdə aradan qaldırdılar. Bura "erməni soyqırımı" ilə bağlı məsələ də daxil oldu. Konqresdəki erməni lobbisinin irəli sürdüyü layihə iflasa uğradı. Xatırladaq ki, ABŞ-ın Cənubi Karolina ştatından senator, Respublikaçılar Partiyasının üzvü Lindsi Qrehem Senatda "erməni soyqırımı" qətnaməsinə veto qoyub. Bununla da Nümayəndələr Palatasının qəbul etdiyi layihə qəbul olunmayıb. Senator məsələ ilə bağlı deyib: "Mən bu məsələni və Türkiyənin Suriyadakı hərbi əməliyyatlarla bağlı üzləşdiyi problemləri prezident Rəcəb Tayyib Ərdoğan və Ağ Evin başçısı Donald Trampla bir neçə saat müzakirə etdim. Ümid edirəm ki, Türkiyə və Ermənistan 1915-ci il hadisələrini öz aralarında danışa bilər. Senatorlar tarixi yenidən yazmamalı və tarixi reallığı olduğu kimi qəbul etməlidirlər". O, konqresmenləri qərar qəbul edərkən Türkiyə-ABŞ münasibətlərinin perspektivini nəzərə almağa çağırıb.

Bütün bunlardan sonra Rəcəb Tayyib Ərdoğan ABŞ-da erməniləri qəzəbləndirən növbəti gediş edərək mühüm açıqlamalar verib. ABŞ-da Dəyanət Mərkəzində çıxışı zamanı Türkiyə prezidenti "erməni soyqırımı" ilə bağlı maraqlı məqamalara toxunub: "Ermənistana "ortaq tarix komissiyası quraq, tərkibində üçüncü tərəflər də olsun" dedik. Bu məsələnin həllilə bağlı bütün xoş niyyətimizi və siyasi iradəmizi ortaya qoyduq. "Arxivləriniz varsa, siz də açın" dedik və biz arxivlərimizi açdıq. Bizim təkcə Türkiyə Silahlı Qüvvələri arxivində 1 milyon sənədimiz var. "Buyurun, gəlin" dedik, amma gəlmədilər, gələ bilmirlər. Niyə? Çünki çalışmağa başladıqları zaman axtardıqlarını tapa bilməyəcəklərini özləri də bilirlər. "Buyurun, Harvardın, Fransanın belə bir kiçik arxivi var", - dedik, amma onu da qəbul etmədilər". Ərdoğan qeyd edib ki, "erməni soyqırımı" məsələsi gündəmə gələndə siyasətçilər yox, tarixçilər önə çıxmalıdır: "Ermənistan onsuz da dünənin dövlətidir. 1991-ci ildə dövlət oldular. Bundan öncə müxtəlif yerlərdə köçəri olaraq dolaşırdılar. Türkiyədə də eyni şəkildə köçəri olaraq yaşarkən məcburi köç məsələsi gündəmə gəldi, bu addımlar atıldı. Bu gün Türkiyədə 100 minə yaxın ermənınin olduğunu bilirsinizmi? Bunun 60 mini vətəndaşımızdır, 40 mini qeyri-qanuni şəkildə ölkəmizdə yaşayır. Biz bu 40 mini ölkəmizdən deport etməmişik. Bunları Ermənistana göndərə bilərdik, amma göndərmədik. Məhz bu, türk millətinin insani keyfiyyətini ortaya qoyur. Bunu görmürlər və görmək istəmirlər. Ermənistan ölkələrimiz arasında 2009-cu ildə imzalanan protokolları ratifikasiya etməkdən qaçdı. Erməni diasporu isə yalan və iftiralarına davam edərək, ölkəmizə qarşı qara piarını davam etdirdi. Bunların işi və pulu çoxdur. ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi qərar, təəssüf ki, siyasi revanş halına gətirilib. Alınan qərarın tarixi reallıqlarla heç bir əlaqəsi olmadığı aşkardır. Bu qərar bizim nəzərimizdə yox hökmündədir. Bu cür siyasi qərarlarla ölkəmizi basqı altına alacağını düşünənlər tez, ya da gec yanıldıqlarını anlayacaqlar".

Məsələnin bu tərəfini şərh edən rusiyalı ekspert Yevgeni Mixaylov qeyd edir ki, Ərdoğanın gedişləri və Vaşinqtonun mövqeyi ABŞ-dakı erməni lobbisinin nüfuzuna sarsıdıcı zərbə vurub: "Osmanlı imperiyasında guya baş vermiş "erməni soyqırımı"nı tanıyan qətnaməyə veto qoyulması ABŞ-ın xarici siyasətində Ermənistanın həqiqi yerini ilk dəfədir bu qədər əyani şəkildə ortaya qoydu. Bütün bu məsələ yalnız və yalnız türklərə təzyiq göstərmək məqsədi daşıyır. Vaşinqtonda ağlı başında olan adamlar da var. Oradakılar erməni məsələsinin türklər üçün ABŞ tərəfindən qoşulan qulpdan başqa bir şey olmadığının fərqindədir. Türkiyə ilə münasibətlərin pozulması Vaşinqtona çox baha otura, ilk növbədə də, NATO-dakı ən böyük müttəfiqinin əldən çıxmasına gətirib çıxara bilər". Ekspert dünyanın təkcə "soyqırımı" qətnaməsini qəbul etdirməyə çalışan erməni lobbisinin məğlubiyyətinə yox, həm də prezident Donald Tramp və administrasiyasının ABŞ-dakı erməni diasporuna açıq ismarıcına şahid olduğunu qeyd edib. Rusiyalı politoloqun fikrincə, qətnaməyə qoyulan vetoda yəhudi icması da mühüm rol oynayıb: "Nasistlər tərəfindən yəhudilərə qarşı törədilmiş Holokost hamı tərəfindən qəbul edilən tarixi fakt olduğuna görə yəhudilər başlarına gələnlər müqabilində haqlı olaraq təzminat alıblarsa, ermənilərin türkləri "cəzalandırmaq" cəhdlərinin arxasında, fikrimcə, hansısa təzminatla yanaşı, "böyük Ermənistan"ın xəyali ərazilərini qaytarmaq istəyi də gizlənir ki, bu da əslində qeyri-mümkündür".

**Politoloq Osmanlı imperiyasında 1915-ci ildə baş verənlərin tarixçilər tərəfindən az tədqiq olunduğunu, iki dövlət arasındakı siyasi gündəmə çıxarılacaq bir məsələ olmadığını vurğulayıb: "Qeyd etmək istərdim ki, XX əsrin əvvəlində bir çox xalqlar böyük məşəqqətlərə düçar olublar. Odur ki, o vaxt kim əziyyət çəkibsə, hamısının soyqırımını tanımaqla ifratçılıqla məşğul olmaqdansa, keçmişdəki səhvləri üzə çıxararaq müasir dövrdə təkrarlanmaması üçün ibrət götürsək, daha yaxşı olar".**

***Nahid SALAYEV***

# Gənc nəslimizin yad təsirlərdən qorunması dünya din liderlərinin müzakirəsində...

## *Aytəkin Kamranqızı: "Azərbaycan gənclərini yad təsirlərdən qorumaq lazımdır"*

**Cəmiyyətdə sağlam mühitin əsas göstəricisi mənəviyyatdır ki, onun formalaşması üçün bəlkə də minilliklər lazım olur. Adət-ənənələr, əxlaqi dəyərlər, ictimai şüurda özünə yer tapmış dini ayin və mərasimlər hər bir millətin kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına nümunəvi töhfədir.**

Əslində onlar milli kimliyin ifadəsidir. Çünki ilk növbədə xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsi hesab olunurlar. Mənəvi dəyərlərin qorunub saxlanması buna görə hər bir xalqın borcudur.

Əsrlərin sınağından çıxmış xalqımız öz müqəddəs dəyərlərini, adət-ənənələrini qorumaqla bərabər, onlara ümumbəşəri, tolerant münasibət də bəsləyir. Ona görə müasirliyə və yeniliyə can atır. Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin, mənəvi və dini dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı yürütdüyü siyasət bu mənada hazırkı dövrün reallıqları ilə şərtlənir. Dövlət başçısının fikrincə, qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı mütərəqqi dəyişikliklərə yol açır. Lakin bu prosesin tarixi-mədəni irsə müəyyən təhlükəli meylləri də özünü qabarıq şəkildə göstərir. Bu zaman xalqların mədəni dəyərləri ən azı assimilyasiyaya uğrayır. Çünki qloballaşma prosesi dövlətlər və ölkələr arasında sərhədləri nisbi anlayışa çevirir, milli məkanı müxtəlif, yad təsirlərə məruz qoyur.

Yad təsir, yabançılığa meyl göstərmək Azərbaycan gəncinə layiq bilinməyən bir işdir. Gənc nəsil daha çox özünü dərk etməli, öz milli adət-ənənələrinə istinad etməlidir. Təcrübə göstərir ki, yad təsirə uymaq meylləri gəncləri özündən qopararaq qaranlıq bir aləmə qərq edir. Odur ki, gənclik milli şüura sahiblənmək üçün cəhdlər etməlidir. Gənclik milli dəyərlərə bağlı olanda daha güclü və yenilməz ola bilir.

Məsələ burasındadır ki, gənclərin əksəriyyəti milli mənlik şüuruna sahib ola bilir. Düzdür, bu keyfiyyətdən uzaq düşənlər də olur. Bütövlükdə gənclər milli mənlik şüuruna sadiqdir.



Sevindirici haldır ki, Azərbaycan gəncləri milli mınlik şüuruna sədaqətlidir. Hətta Prezident İlham Əliyev noyabrın 14-də Dünya Dini Liderlərinin II Bakı sammitinin açılış mərasimində çıxış edərkən bildirib ki, Azərbaycan o ölkələrdəndir ki, öz inkişafını milli köklər üzərində qurub, ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir: "Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşününü mövzularından biri də bu olacaq. Çünki biz görürük ki, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü, xüsusilə də gənc nəsli yad təsirdən qorumalıyıq. Buna görə də ənənəvi dəyərləri, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalı, bu istiqamətdə Azərbaycanda aparılan siyasət həm dövlət həm də dini liderlər tərəfindən aparılan siyasət çox böyük qiymətə layiqdir".

Gənc nəslin yad təsirlərdən qorunmasının əhəmiyyəti haqqında danışan sosioloq Aytəkin Kamranqızı bildirdi ki, gənclər yad təsirlərdən qorunmalıdır: "Düzdür, burada digər faktorlar da var, ancaq əsas milli mənlik şüurudur. Bu faktor həqiqətən də mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Gənclərin buna sahib olması bütövlükdə dövlətin ümummilli ideologiyasının qorunması baxımından müstəsna rola və əhəmiyyətə malikdir. Bu indi də belədir, bundan sonra da belə olacaq. Eyni zamanda, milli-mənəvi dəyərlərin deqradasiyaya məruz qalmasının qarşısını alır. Ümumilikdə sözügedən dəyərlərin qorunmasının cəmiyyətə verdiyi fayda ölçüyəgəlməz dərəcədə böyükdür. Çünki bu həm də milli kimlik məsələsini özündə ehtiva edir".

Həmsöhbətimizin sözlərinə görə, bu baxımdan milli mənlik şüurunun vəd etdiyi fayda yetərincə müxtəlif və çoxşaxəlidir: "Yetər ki, onun prinsipial əsaslarını qoruyub saxlaya, böyüməkdə olan gənc nəslə aşılaya, çatdıra, təməl prinsiplərini öyrədə biləsən. Ona görə də sözügedən məsələnin cəmiyyətə çatdırılmasında bütün vasitələrdən istifadə etmək lazımdır. Təbii ki, bunun üçün də başlıca olaraq gənclərə milli mənlik şüurunun aşılanmasını həyata keçirmək lazımdır. Müşahidələr göstərir ki, sözügedən məfhumun qavranılması gənclərin milli dəyərlərə nə dərəcədə bağlı olması ilə ölçülür. Aydın məsələdir ki, bunun üçün də birinci növbədə ailədə, məktəbdə, ictimaiyyətdə müvafiq mühit olmalıdır. Çünki milli mənlik şüuru özünüdərk deməkdir. Milli özünüdərk deyəndə ilk növbədə insan bağlı olduğu tarixi kökü, milli mənsubiyyətini, vətəninin tarixini bilməli və dərindən təhlil etməyi bacarmalıdır. Hər bir gənc, vətəndaş dərk etməlidir ki, hansı vətəni, milləti, milli xüsusiyyətləri təmsil edir. Eyni zamanda, milli dəyərlərin tarixin hansı mərhələlərindən keçdiyini bilməlidir. Yuxarıda sadalananlar milli mənlik şüuruna aid olan faktorlardır".

A.Kamranqızı onu da vurğuladı ki, həddən artıq Qərb mədəniyyətinə hərislik milli mənlik şüuruna və vətənpərvərlik hisslərinə mənfi təsir göstərir: "Qərb mədəniyyətinə kor-koranə aludəçilik, pərəstiş, "kopya"lamaq və onu öz yaşam tərzinə çevirmək kimi məsələlər bu gün ciddi problemdir. O üzdən, mənə elə gəlir ki, bu cür yanaşma və təqlidçilik hazırkı gəncliyimizin əsas problemlərindən biridir. Necə gəldi o mədəniyyəti mənimsəmək və onu məişət tərzinə daxil etmək düzgün olmayan bir yaşam tərzidir. Bu, bütövlükdə milli-mənəvi dəyərlərə zərər vurur. Hər halda, biz öz milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Sözügedən dəyərlərə hər zaman sahib çıxmağı bacarmalıyıq. Təbii ki, Qərbdə müsbət məqamlar çoxdur və onlardan faydalanmaq lazımdır. Bunda qəbahət bir şey yoxdur. Ancaq milli məişətimizə uyğun olmayan dəyərləri daxil etmək doğru deyil. Mümkün qədər gəncləri bu kimi təsirlərdən qorumaq lazımdır. Bu məsələdə vaxt itirmək olmaz. Konkret adekvat addımların atılmasına ehtiyac var".

***Günel CƏLİLOVA***

# Yaşar Lətifovun açıqlaması SOCAR-ın dünya qaz bazarında gücünün artacağından xəbər verir

**Aparılan hesablamalar göstərir ki, qarşıdakı dövr ərzində dünyada təbii qaza tələb əhəmiyyətli dərəcədə artacaq. Beynəlxalq Enerji Agentliyinin son hesabatında da deyilir ki, təbii qaza tələb artır. Qurum bəyan edir ki, təkcə keçən il qlobal təbii qaz hasilatı 3,9 trilyon kubmetr olub.**

Cari ildə bu rəqəmin 4 trilyon kubmetrə yaxın olması və növbəti illər ərzində yalnız artacağı gözlənilir. 2040-cı ildə isə bu göstərici 5,9 trilyon kubmetrə yüksələcək. Bütün bunlar təbii qaza getdikcə böyük tələb yarandığını aydın nümayiş etdirir. Belə vəziyyət öz növbəsində qaz hasil edən ölkələrin dünya enerji bazarında mövqelərinin daha da möhkəmlənəcəyini göstərir ki, onların sırasında Azərbaycan da var.

Məhz belə bir vaxtda Dövlət Neft Şirkətinin (SOCAR) yataqların işlənməsi üzrə vitse-prezidenti Yaşar Lətifov "Petroleum Economist" dərgisinə açıqlamasında olduqca maraqlı fikirlər səsləndirib. Onun sözlərindən belə bəlli olur ki, Azərbaycanın təbii qaz ehtiyatları nəzərdə tutulan həcmdən də çoxdur: "Biz istər "Dayazsulu Günəşli", istərsə də "Bulla dəniz" və digər mövcud yataqlarda ənənəvi olaraq tanınan məhsuldar qatlardan daha dərinlərdə daha çox ehtiyatlar aşkar edirik. Bu, perspektivdən xəbər verir". O qeyd edib ki, bir çox yataqların yaşlanmasına baxmayaraq, onlar yüksək intensivlikdə saxlanılır: "Bərpa olunma səmərəliliyi nisbətinə baxsaq, qalıq ehtiyatları orta hesabla 5% dərəcəsi ilə inkişaf etdiririk. Yataqların çox köhnə olduğunu nəzərə alsaq, bu rəqəm çox yaxşı göstəricidir. Lakin daha səmərəli yataqlarda bu göstərici daha yüksəkdir. Məsələn, "Dayazsulu Günəşli" yatağında səmərəlilik nisbəti göstəricisi 8-9%-dir".




O xatırladır ki, Azərbaycanda indiyədək 2 milyard tondan çox neft və 850 milyard kubmetrdən çox qaz hasil edilib:"Bu yataqlardan hasilat bizim enerji təhlükəsizliyimizi təmin edir. Ötən il ölkədə 39 milyon tona yaxın neft hasil edilib. Bunun da 7,5 milyon tondan çoxu SOCAR-ın payına düşür. Azərbaycanda qaz hasilatının həcmi isə 30 milyard kubmetrdən çox olub ki, onun da 6,5 milyard kubmetri SOCAR-ın payıdır". Y.Lətifov qeyd edib ki, bu il ölkədə qaz hasilatının ötən ildən, təxminən, 7 milyard kubmetr çox olacağı gözlənilir: "Bu il "Şahdəniz" yatağından, təxminən, 19 milyard kubmetr qaz hasilatı planlaşdırılır. Gələn il isə yataqdan 22 milyard kubmetr, 2021-ci ildə isə 24 milyard kubmetr qaz hasilatı gözləyirik. Qaz hasilatı ilə bağlı ümumi tendensiya artıma doğrudur".

Xatırladaq ki, ötən 25 ildə Azərbaycanda qaz hasilatı 5 dəfə, son 11 ildə isə 30,3% artıb. İlin sonuna kimi Azərbaycanda 36 milyard 298,8 milyon kubmetr qaz hasil ediləcəyi proqnozlaşdırılır. 2018-ci ildə ölkədə 30 milyard 592,2 milyon kubmetr qaz istehsal edilib ki, bu da 2017-ci ilin göstəricisi ilə müqayisədə 7,1% çoxdur. Cari ildə isə ötən ilə nisbətən daha çox qaz hasilatı gözlənilir. Rəsmi açıqlamalara görə, hazırda Azərbaycanın 2,6 trilyon kubmetr dəqiqləşdirilmiş çıxarıla bilən qaz, 1,5 milyard ton çıxarıla bilən neft-kondensat ehtiyatı var. Proqnoz ehtiyatlarını da nəzərə alsaq, Azərbaycanda 6 trilyon kubmetr qaz və 4 milyard ton neft ehtiyatı var. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dünya enerji bazarında qarşıdakı dövr ərzində mühüm oyunçulardan biri kimi qalmaqda davam edəcək. Qarşıdakı dövr ərzində bu istiqamətdə Azərbaycanın mövqelərinin daha güclü hala gəlməsi gözlənir. Ən azı o baxımdan ki, gələn il Azərbaycan "Cənub Qaz Dəhlizi"ni tam şəkildə istifadəyə verməyə hazırlaşır. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin son hissəsi sayılan TAP kəmərinin inşası məhz gələn il başa çatır. "Cənub Qaz Dəhlizi" ildə 16 milyard kubmetr Azərbaycan qazını dünya bazarlarına çıxaracaq. Amma ehtiyatların artımı fonunda bu göstəricinin iki dəfə artması gözlənilir. "Cənub Qaz Dəhlizi" Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Hazırda Avropada Azərbaycan qazına tələbin sürətlə artması da aydın müşahidə olunur. Xüsusən də Şərqi Avropa prosesə böyük maraq göstərir. Bolqarıstanın baş naziri Boyko Borisov da bunu xüsusi vurğulayır və ölkəsinin Azərbaycan qazının idxalına mühüm önəm verdiyini qeyd edir: "Bolqarıstan gələn ildən gec olmayaraq Azərbaycan təbii qazını idxal edə biləcək. Azərbaycan təbii qazını nəql edəcək Yunanıstan - Bolqarıstan boru kəməri (İGB) layihəsi bizim üçün bu mənada çox önəmldir. Gələn il bolqarlara qaz asılılığınız yoxdur, haradan istəsək qaz ala bilərik - deyə biləcəyik. Bu, gerçək şaxələnmədir".

Avropa İttifaqının 7 başlıca enerji layihəsinə aid olunan İGB layihəsinin Yunanıstan və Türkiyədəki mövcud və yeni terminallar vasitəsilə Yaxın Şərqdən, Xəzər regionundan, Şərqi Aralıq bölgəsindən enerji mənbələri tədarükü və tədarük xətlərinin şaxələndirilməsi demək olduğunu qeyd edən Bolqarıstan baş naziri tikintidə artıq torpaq işlərinə başlandığını, marşrutun birinci kilometrində boruların lazımi yerlərə çatdırıldığını bildirib. Qeyd edək ki, İGB Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən təbii qazın Bolqarıstana nəqlini nəzərdə tutur.

TAP-a qoşulacaq bu kəmər vasitəsilə Bolqarıstan Azərbaycandan ildə 1 milyard kubmetr təbii qaz idxal edəcək. Belə ki, "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından bu miqdarda qaz almaq üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Azərbaycan təbii qazı hesabına Bolqarıstan qaz tələbatının 25-30 faizini ödəyə biləcək. İGB-də tikinti işlərinin gələn ilin ikinci yarısında başa çatacağı gözlənilir. Bütün bunlar həm də onun təsdiqidir ki, "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın mövqeyini beynəlxalq miqyasda gücləndirir. Azərbaycan belə layihələrdə iştirak etməklə beynəlxalq arenada həm siyasi, həm də iqtisadi nüfuzunu yüksəldir.

*Tahir TAĞIYEV*

# Maliyyə Palatası nümayəndəsinin kredit faizləri barədə fikri sərt tənqid olundu...

**Bankların kredit faizlərinin yüksək olması müzakirə edilən məsələlərdəndir. Danılmaz faktdır ki, bu gün Azərbaycan bankları əhaliyə yüksək faizlə kredit verir. Məlumat üçün bildirək ki, yerli banklar istehlak kreditlərini orta hesabla illik 23%-lə, biznes kreditlərini isə illik 8%-lə təklif edir.**

***Fuad İbrahimli:** ”Kredit faizlərinin yüksək olması gələcəkdə kreditin qaytarılmama risqini artırır, bank-müştəri münasibətlərini kəskinləşdirir”*

Kredit faizlərinin yüksək olması məsələsi dəfələrlə müzakirəyə çıxarılıb. İctimai xadimlər, millət vəkilləri, hətta Prezident İlham Əliyev də bankların təklif etdiyi kredit faizlərinin yüksək olması barədə öz narazılıqlarını bildirib. Ancaq bankların kredit faizlərini aşağı salmaq kimi fikirləri yoxdur.

Hətta Azərbaycan banklarının təklif etdiyi kredit faizlərinin qonşu ölkələrlə müqayisədə yüksək olmadığı bildirilir. Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin sədr əvəzi İbrahim Alışov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, bu gün Azərbaycan banklarının təklif etdiyi kreditlərin faizləri qonşu ölkələrlə müqayisədə yüksək deyil: "Hazırda yerli banklar istehlak kreditlərini orta hesabla illik 23%-lə, biznes kreditlərini isə illik 8 faizlə təklif edir. Bununla belə, apardığımız təhlillər göstərir ki, bu gün bankların 8,2 milyard manat likvid vəsaiti var".

Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndəsi iddia edir ki, Azərbaycan banklarının təklif etdiyi kredit faizi qonşu ölkələrlə müqayisədə yüksək deyil. Ancaq apardığımız araşdırma zamanı məlum olub ki, Azərbaycanda banklarının təklif etdiyi kredit faizi qonşu ölkələrlə müqayisədə dəfələrlə yüksəkdir.

Məlumat üçün bildirək ki, inkişaf etmiş ölkələrdə, xüsusilə daşınmaz əmlakın kreditlə alınması adi haldır. Avropa Birliyinə üzv ölkələrdə bu məqsəd üçün verilən kreditlərdə faiz dərəcələri 3-7 arasında dəyişir. Məsələn, İspaniyada mənzil almaq istəyən şəxs bankdan bu məqsədlə 3-4 faizlə kredit ala bilər. İtaliyada eyni məqsəd üçün kreditlər 4,5 faizlə verilir. Almaniya banklarında bu məqsəd üçün 5,5 faizlə kredit almaq olar.

Rusiyada Avropa ölkələri ilə müqayisədə faiz dərəcələri yüksək olsa da, Azərbaycanla müqayisədə aşağıdır. Məsələn, ipoteka kreditlərində bu göstərici 17 faizdr. ABŞ-da 4,5-6 faiz, Kanadada 3-6 faiz, Fransada 3-4 faiz, Yunanıstanda 6 faiz, Portuqaliyada 2-3 faiz, Kiprdə isə 4-5 faizdir. Böyük Britaniyada ipoteka kreditlərinə görə faiz dərəcələri 2-7 arasında dəyişir. Britaniya banklarından böyük məbləğdə kredit götürmək istəyən şəxslər vəsaiti hansı məqsədlərə sərf edəcəyini açıqlamağa borclu deyil.

Avropa Birliyi ölkələrində istehlak krediti orta hesabla 7-8 faizlə verilir. Almaniya, Lüksemburq, Finlandiya, Belçika və Fransada dərəcələr müddətindən asılı olaraq 2-7 faiz təşkil edir. ABŞ-da bu göstərici 5 faizdən çox deyil.




Çində 6, Braziliyada 5, Avstraliyada 3, Norveçdə 2-3 faiz ətrafındadır. Rusiyada və Türkiyədə 10 faizədək dərəcəylə istehlak və biznes kreditləri götürmək olur. MDB ölkələrinin çoxunda faizlər 10-20 faiz arasında dəyişir.

Apardığımız araşdırma zamanı məlum oldu ki, Azərbaycan banklarının təklif etdiyi kredit faizləri qonşu ölkələrlə müqayisədə qat-qat yüksəkdir.

İqtisadçı Fuad İbrahimli bildirdi ki, Azərbaycanda kredit faizlərinin yüksək olması, həmçinin banklarda depozit və kredit faizləri arasındakı fərqin hissolunacaq dərəcədə böyük olması cəmiyyətimizdə haqlı narazılıqlar yaradır. Kredit faizlərinin yüksək olmasında adətən əsas günahkar banklar hesab olunur: "Etiraf etmək lazımdır ki, bəzi banklar, izafi likvidliyin olmasına baxmayaraq, kredit üzrə faiz dərəcələrinin (əsasən istehlak kreditləri) aşağı endirilməsində maraqlı deyil. Banklar bunun ölkənin kredit bazarda olan tələb və təklif amilindən asılı olduğunu iddia edirlər. Lakin bununla belə unutmaq olmaz ki, heç bir kredit təşkilatı kredit faizlərinin yüksək olmasında maraqlı deyil. Çünki kredit faizlərinin yüksək olması gələcəkdə kreditin qaytarılmama risqini artırır, bank-müştəri münasibətlərini kəskinləşdirir və nəticədə əsas zərərçəkmiş tərəf bankların özləri olur".

Həmsöhbətimiz onu da vurğuladı ki, əksər xarici ölkələrdə olan banklar Mərkəzi Bankdan eyni uçot dərəcəsi ilə kredit götürür və aralarında rəqabət olduğundan aşağı faizlə kredit verməyə çalışırlar. Bizdə isə vəziyyət fərqlidir. Banklar bir-birilə rəqabət aparmaqda maraqlı deyil.

***Günel CƏLİLOVA***

# Gecəsi 10 minə toya gedən müğənnidən 30 manat vergi, 500 manat müsabiqə pulu alan jurnalistdən 26 manat vergi...

**Dövlətimizin qanunlarına əsasən, vergidən yayınmaq böyük cinayətdir. Amma şou-biznes nümayəndələri açıq şəkildə nəinki vergidən yayınırlar, hətta gündəlik qazandıqları 10-15 manat müqabilində ay ərzində cəmi 30 manat vergi ödəməklə canlarını qurtarırlar. 10-15, 20 min manata toylara gedən müğənnilərin gəlirlərinə uyğun vergiyə cəlb edilməli olduğu aktuallaşıb.**



***Samir Əliyev:** ”Müğənnilərin, şoumenlərin, eləcə də digər gəlirli sahədə çalışanların vergi yükü çox azdır, bu da müğənnilərin, eləcə də daha çox gəlir əldə edən insanların gəlirlərinin vergiyə düzgün şəkildə cəlb edilməməsi ilə bağlıdır”*

Müğənni qazandığı külli miqdarda pul müqabilində 30 manat vergi ödəyirsə, az gəlir əldə edən başqa fəaliyyət sahəsində olan vətəndaş bundan qat-qat artıq vergi ödəyir. Müğənni bir gündə qazandığı 10-15 min müqablində 30 manat, jurnalistlər isə jurnalist yazı müsabiqələrində qazandıqları 300, 500 manata görə 26 manat vergi ödəyirlər.

Ekspertlər hesab edir ki, toylara, şənliklərə gedən müğənnilərin gündəlik qazancının monitorinqi keçirilməli və onlar üçün vergi əldə etdikləri məbləğə uyğun hesablanmalıdır. Ekspertlər qeyd edir ki, müğənni qazandığı böyük məbləğə görə 30 manat, çəkməçi, ofisant isə qazandığı cüzi pula görə böyük məbləğdə vergi ödəyir.

Tanınmış iqtisadçı Samir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün şou-biznes nümayəndələri və ictimai iaşə xidməti ilə məşğul olanlar vergidən yayınanlar sırasında öndə durur:"Burada məsələyə təkcə müğənnilərlə bağlı yox, ümumi yanaşmaq lazımdır. Söhbət məsələyə ədalətli yanaşmadan gedir. Müşahidələr göstərir ki, az gəlir əldə edənlə çox qazanc götürənlərin vergi yükü eyni deyil, az gəliri olanların vergi yükü daha çoxdur. Bayaq siz jurnalistlərin ödədiyi vergi məbləğini misal çəkdiniz, doğrudan da jurnalistlərin vergi yükü çoxdur. Amma müğənnilərin, şoumenlərin, eləcə də digər gəlirli sahədə çalışanların vergi yükü çox azdır, bu da müğənnilərin, eləcə də daha çox gəlir əldə edən insanların gəlirlərinin vergiyə düzgün şəkildə cəlb edilməməsi ilə bağlıdır. Deyirik ki, müğənnilər vergidən yayınır, gəlirinə uyğun vergi ödəmir. Onlar üçün vergi tətbiq olunub, amma bu vergi düzgün tətbiq edilməyib. Məsələn, işləyənlər üçün gəlir intervalı müəyyən edilib. Əgər muzdlu işçilərin gəlirlərinə uyğun vergi tətbiq edilirsə, ofisiant, digər insanlar üçün 30 manat sabit vergi tətbiq olunursa, bəs onda nəyə görə hansısa bir müğənninin, şoumenin minlərlə ölçülən gündəlik gəlirlərindən cüzi məbləğdə verdi tutulur? Halbuki, şou müğənnilərinin ayılıq vergiləri 100 manatlarla olmalıdır. Toylardan böyük məbləğdə pul qazanan müğənnilərlə bağlı ədalətli vergi qaydası müəyyən edilməlidir. Düşünürəm ki, onlara sabit vergi tətbiq etmək olmaz, çünki onların gəlirləri çox böyükdür və dəyişkəndir. Bu mexanizmin tətbiq edilməsi vacibdir. Amma müğənnilərin gündəlik gəlirlərinə nəzarət hansı formada olmalıdır ki, onlar vergidən yayına bilməsinlər, real gəlirlərini gizlətməsinlər? Gəlirləri müəyyən etmək o zaman asan olur ki, tərəflər arasında müqavilə imzalanır və müğənniyə ödənilən pul həmin sənəddə açıq şəkildə əks etdirilir. Bizim toylara gedən müğənnilər rəsmi müqavilə imzalamadan, danışıqla toya gedirlər".

*”...Doğrudan da jurnalistlərin vergi yükü çoxdur”*

S.Əliyev qeyd etdi ki, bu restoran və şadlıq evlərinin özlərinin çoxu normal qaydada vergi ödəmir. Onun sözlərinə görə, hazırda vergidən yayınan qurumlar var. "Bu gün ictimai iaşə və şou-biznes vergi ödəmə sahəsində geridə qalıb, onlar düz-əməlli vergi ödəmirlər. Kafelərin hansı qazandığı gəlirə görə vergi ödəyir? Bu sektorlarda vergidən yayınmalar çoxdur"-deyə S.Əliyev qeyd etdi.

***İradə SARIYEVA***

№ 204 (4102) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

16-18 NOYABR 2019-cu il

# İlk dəfə dron vasitəsilə dərmanlar müştəriyə çatdırıldı

**"UPS Flight Forward" çatdırılma xidmətinin törəmə pilotsuz təyyarənin köməyi ilə resept üzrə dərmanları birbaşa müştərinin evinə çatdırıb.**

Çatdırma "CVS" apteki ilə əməkdaşlıq çərçivəsində, həmçinin pilotsuz uçan aparatlar üzrə ixtisaslaşmış "Matternet" logistik şirkəti ilə birgə həyata keçirilib. "Biz-plus.az" bildirir ki, uçuş avtonom şəkildə, amma operatorun müşahidəsi altında həyata keçirilib. Şirkət ümid edir ki, gələcəkdə belə pilotsuz uçan aparatlar məhdud fiziki imkanlı müştərilərin dərman vasitələri əldə etməsini asanlaşdıracaq. Pilotsuz təyyarələrin köməyi ilə çatdırılma prosesinin zəif



inkişafı əsasən şirkətlərə operatorun birbaşa görünüşündən kənarda və ya Federal Aviasiya İdarəsinin lazımı icazəsi olmadan gecə vaxtı uçmağa imkan verməyən tənzimləmə məsələləri ilə bağlıdır.

## Çindən dünyanı ayağa qaldıran addım - kimin "sağ qalması və ya ölməsi"nə silahlı dronlar özü qərar verəcək

Çinin Orta Şərqə unikal "PUA" (Pilotsuz Uçuş Aparatı) satması dünyada narahatlıq yaradıb. "Oxu.az" xəbər verir ki, bu silahlı uçuş aparatları kimin "sağ qalması və ya ölməsi" məsələsini müəyyən edə biləcək. Avstraliyada "New South Wales" Universitetinin professoru Tobi Valş bu barədə açıqlama verib. "Özünüzü müdafiə edə bilməyəcəksiniz. Hücum başlasa, döyüş meydanında olanların hamısı öləcək", - deyə bildirib.

## Xərçəngi yox edən yeni üsul...

Xərçəng ən dəhşətli xəstəliklərdən biridir, onu məğlub etmək çox çətindir. Lakin daim elmi axtarışlarda olan alimlər müalicənin daha effektiv yolunu tapıb. "Publika" xəbər verir ki, Filippin Universitetinin alimləri buynuz ilbizlərindən hazırlanan ekstraktların xərçəng hüceyrələrinin yayılmasının qarşısını aldığını müəyyənləşdirib. Ekstrakt qan damarlarının böyüməsinə maneə törədir ki, bu da xərçəng hüceyrələrinin aclığına səbəb olur və böyüməsini dayandırır. Maddə xərçəng hüceyrələrini birbaşa məhv etmir, lakin onların məhv olması üçün münbit şərait yaradır.



# Şəkidə 4 nadir bitki növü müəyyən edilib

**AMEA Botanika İnstitutu Şəkidə apardığı fenoloji müşahidələr zamanı 4 nadir bitki növü müəyyən edib.**

"Trend" tərəfindən məlumat verilib ki, Botanika İnstitutu ilə AMEA Şəki Regional Elmi Mərkəzi arasında elmi əməkdaşlıq çərçivəsində müştərək çöl tədqiqatları həyata keçirilib. Məqsəd regionun bitki biomüxtəlifliyinin öyrənilməsi və davamlı istifadəsinin təmin edilməsi, o cümlədən əldə olunmuş nəticələrdən birgə istifadə etməklə bitki ehtiyatlarının qiymətləndirilməsi olub. Şəki rayonunun Baş Şabalıd kəndi və Marxal ərazisində keçirilən ilkin monitorinq nəticəsində meşə massivlərində payız florasının siyahısı tərtib olunub və fenoloji müşahidə-



lər aparılıb. Bu sahələrdə 4 nadir bitki növü (Castanea sativa Mill.,Coryluscolurna L., Pyracantha coccinea M. Roem., Crocus speciosus Bieb.) müəyyən olunub, onların populyasiyalarının demoqrafik strukturu və vəziyyəti öyrənilib.

Həmçinin meşə massivlərində bəzi invaziv növlərin (Ailanthus altissima (Mill.) Swingle, Robinia pseudoacacia L. və Conyza canadensiscanadensis (L.) Cronquist) meşəyə daxil olması qeydə alınıb. Nadir bitkilərin populyasiyalarına aid alınan məlumatlar Azərbaycanın "Qırmızı kitabı"nın yeni nəşrində istifadə oluna bilər.

**Elan**

Sultanlı Yusif Əli oğlunun adına Bakı Slavyan Universiteti tərəfindən verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Ətrafınızdakılara qarşı çox tələbkar olmayın. Dilinizi saxlamaq, birmənalı olmayan situasiyanı zarafata çevirmək elə də çətin deyil, üstəlik, faydalıdır. Gərəksiz xərclər mümkündür, dəyərli bir əşyanızı itirə bilərsiniz.



**Buğa** - İş üçün bu gün tamamilə yararsızdır. Əgər təsadüfən işdən yayınıb özünüz üçün istirahət günü təşkil edə bilsəniz, o zaman vacib işləri bir kənara qoyub məhz istirahət etməyə cəhd göstərin.



**Əkizlər** - Kommersiya fəaliyyəti üçün münasib gündür. Demək olar ki, bütün sövdələşmələr uğurlu olacaq. Əcnəbilərlə görüşlər yaxşı keçəcək. Xaricə səfər ümidlərinizi doğruldacaq.



**Xərçəng** - Asan gün deyil, amma siz dözümlüsünüz, istənilən zərbəyə sinə gərirsiniz, bu səbəbdən də uğurlarınız çoxdur. Əks cəbhənin dostları sizə öz köməklərini təklif edə bilərlər.



**Şir** - Bu günün əksər hissəsini öz qorxu və zəifliklərinizi yenməyə sərf edir, bir çox fürsətləri əldən qaçırırsınız. Bir çox Şirlər bu günü daxili vurnuxma, əzablar, narahatlıq içində keçirəcəklər.



**Qız** - Zərərli vərdişlərdən imtina etmək məsləhətdir. Qrafikdə dəyişiklik edərək yeni ritmə uyğunlaşmaq gərəkdir. Təəssüf ki, mənfi tendensiyaların təsirini tamamilə azaltmaq mümkün deyil.



**Tərəzi** - Uğursuz gündür, hər addımda bir problem yaranır. Rəhbərlik və iş ortaqlarınızla münasibətlər o qədər qeyri-sabitdir ki, peşəkar gələcəyinizin uğuruna şübhə etməyə başlayırsınız.



**Əqrəb** - Evdəki problemləri evdə qoyun, bütün fikrinizi işə yönəldin, o zaman uğurlu ola bilərsiniz. Şəxsi və işgüzar münasibətləri bir-birinə qatmayın. İşdə məhəbbət macərası nədir, hətta kiməsə isti nəzərlərlə baxmağı da unudun!



**Oxatan** - Aktiv fəaliyyət, məqsədə doğru irəliləmək üçün uyğun gündür. Yaxşı formadasınız, hətta, artan gərginlik də sizi yormayacaq. İdmanla, fiziki işlə məşğul olmaq, uzaq səfərlərə getmək olar.



**Oğlaq** - Günün əksər hissəsi başınız məişət işlərinə, ailə qayğılarına qarışacaq. Bütün işlərə vicdanla yanaşırsınız. Odur ki, istənilən problemin həlli adətən, olduğundan daha çox vaxt alır.



**Dolça** - Gün çox şey vəd edir. İşgüzar fəallığınız çox yüksəkdir. Qeyd etmək yerinə düşər ki, Dolçaların çoxu bu gün şəxsi problemlərinin əlindən baş götürüb işə qaçırlar. Bu səbəbdən işdə böyük entuziazm göstərməyinizi anlamaq asandır.



**Balıqlar** - Qohumlarla ünsiyyət, ailə bağlarının möhkəmləndirilməsi üçün münasib gündür. Qadınlarla, xüsusən yaşlı xalalarla söhbət sizə xoş təsir bağışlayacaq. Günün ikinci yarısı xoş sürprizlər mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Selfi sevgisi daha bir turisti öldürdü

**Taylandda fransız turist selfi çəkərkən ölüb.**

"Oxu.az" xəbər verir ki, 33 yaşlı turist Namuanq-2 şəlaləsinin təhlükəli hissəsində selfi çəkərkən, ayağı büdrəyib və yüksəklikdən yıxılıb. Şəlalənin aşağısı sürüşkən olduğundan, xilasedicilərin turistin cəsədini çıxarmaları bir neçə saat çəkib. Xatırladaq ki, iyul ayında eyni yerdən ispan turist də selfi çəkdiyi zaman yıxılaraq ölüb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.